EVDƏ QAL, SAĞLAM QAL!

**Azərbaycan və Litva prezidentləri videobağlantı formatında danışıblar**



Bax 4

**Görkəmli oftalmoloq alim, nəcib və xeyirxah ziyalı**



Bax 5



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 070 (6035) 28 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Vətəndaş məktubu: "Bir daha gördük ki, xalq-Prezident vəhdəti sarsılmazdır"

Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması üçün gördüyü işlər vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız bəşəriyyəti bürüyən bu bəladan Azərbaycan xalqının xilas olması üçün dövlətimizin başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları minnətdarlıq...



Bax 2

## Pravda.ru: "Azərbaycan koronavirusa öz lideri İlham Əliyevlə qalib gəlir!"

COVID-19 adlı yeni tip koronavirusun dünyaya sürətlə yayılmasının ardınca, onunla effektli mübarizə məsələləri ətrafında ciddi fərqlər də görünməyə başladı. Əsasən, onun yayılmasının qarşısının alınması istiqamətində bir sıra ölkələr necə deyərlər, gec tərpəniş göstərdilər və zamanında verilməyən reaksiya istənilməyən nəticələrə - kütləvi yoluxmalarla yanaşı, həm...

Bax 7



Автор
ПЕТР ДЕРЯБИН
27.04.2020 08:00

Хроники COVID-19: Азербайджан — пример эффективности и доверия

МИР » БЫВШИЙ СССР » АЗЕРБАЙДЖАН

Коронавирус нового типа (COVİD-19) несомненно являясь вызовом для всего мира, больно ударил даже по тем экономикам, которые еще вчера казалась нерушимыми. Везде это испытание оказалось сильнейшим для всех сфер жизни общества, но в первую очередь оно ударило по тем странам, где система здравоохранения оказалась недееспособной или неэффективной. И, как эффект домино, "повалились" все сферы и отрасли стран.

Мы видим что у каждого государства свои подходы и свои методы действий во время пандемии COVID-19. Несомненно то, что сейчас в каждом государстве власть демонстрирует своим гражданам

0 комментариев
0 поделились

Стометровая зона отчуждения: драйв на "собянинской дорожке"

Школа онлайн-режима - будет ли толк?

## Akademik: "Koronavirusla nümunəvi mübarizə dövlətimizin başçısının uzaqgörən siyasətinin nəticəsidir"

Dünyanın qabaqcıl ölkələrinin koronavirus pandemiyasından əziyyət çəkdiyi bir vaxtda ölkəmizdə ona qarşı aparılan nümunəvi mübarizə Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir. Yaranmış vəziyyət vaxtında və düzgün qiymətləndirildi, mühüm addımlar atıldı, lazımi tədbirlər görüldü...



Bax 6

## Azərbaycan və Qırğızıstan XİN rəhbərləri arasında telefon danışığı olub



Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun Qırğızıstanın Xarici İşlər naziri Çingiz Aydarbekov ilə telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən...

Bax 6

## DTX və Baş Prokurorluq əməliyyat-axtarış tədbirləri keçirib, İsmayıllı şəhəri üzrə icra nümayəndəsi tutulub



Bax 9

Koronavirus (COVID-19) infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması və onun mənfi...

## Maradonanın forması İtaliyada 55 min avroya satıldı

İtaliyada koronavirusla mübarizəyə dəstək məqsədilə keçirilən yardım aksiyasında əfsanəvi futbolçu Dieqo Maradonanın forması hərraca...



Bax 16

## Erməni siyasətçi: "Dünyanın heç bir yerində Paşinyanı ciddiyə almırlar"

"Dünyanın heç bir yerində, o cümlədən Rusiyada Ermənistanın baş naziri Nikol Paşinyanı ciddiyə almırlar". SİAErmənistan KİV-inə istinadən xəbər verir ki, bu barədə erməni siyasətçi David Şahnazaryan bildirib. Rusiya Xarici İşlər...



Bax 12

**"Əli Kərimlini aparılan iqtisadi, siyasi və ideoloji islahatlar qorxudur"**



Bax 11

**Bir bəyanat Ermənistanı niyə çalxalayıb?**



Bax 12

**Dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim...**



Bax 13

# Vətəndaş məktubu: "Bir daha gördük ki, xalq-Prezident vəhdəti sarsılmazdır"



***Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması üçün gördüyü işlər vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız bəşəriyyəti bürüyən bu bəladan Azərbaycan xalqının xilas olması üçün dövlətimizin başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları minnətdarlıq məktublarında ifadə edirlər.***

AZƏRTAC Prezidentin saytına istinadla dövlətimizin başçısına ünvanlanan daha bir neçə məktubu təqdim edir.

Şamaxı rayonundan şagird Aytən Ədilova yazır: "Hörmətli cənab Prezident, Sizə yazılan minnətdarlıq məktublarını efirdə dinlədikdə mən də ürəyimdən gələn səmimi hisslərimi bildirmək istədim. Mənim 12 yaşım var. Şamaxıda yerləşən M.Hadi adına 9 saylı məktəbin VI sinfində oxuyuram. Dünyada, eləcə də Azərbaycanda yayılmış koronavirus infeksiyasına qarşı ölkəmizdə görülən işlərə görə Sizə "Çox sağ olun!" demək istəyirəm. Sizin sayənizdə respublikamızda bu virusun qarşısı vaxtında alındı. Siz biz uşaqları qorumaq üçün dərsləri dayandırdınız. Lakin evdə qalsaq da, təhsildən, dərslərimizdən geri qalmırıq. Mən bilirəm ki, Siz uşaqları çox sevirsiniz. Mən də Sizi çox sevirəm. Bu sevgimi beş yaşından iştirak etdiyim bütün tədbirlərdə ümummilli liderimiz Heydər Əliyevə və Sizə həsr olunmuş şeirləri böyük həvəslə söyləməklə bildirirəm. Deyirlər uşaqların Allahdan istəkləri mütləq yerinə yetir. Mənim arzum Sizi, Azərbaycanı xoşbəxt görməkdir. Bizi qoruduğunuza görə Sizə təşəkkür edirəm. Nə yaxşı ki, Siz bizim Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik".

Zəngilan rayonundan 81 yaşlı məcburi köçkün, Qarabağ müharibəsi veteranı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Oqtay Ələkbərov məktubunda bildirir: "Möhtərəm İlham Heydər oğlu, Siz ulu öndər Heydər Əliyevin ideyalarının layiqli davamçısı kimi Birinci vitse-prezident Mehriban xanımla birlikdə dövlət-xalq-iqtidar birliyini formalaşdıraraq gündən-günə möhkəmləndirirsiniz. Çətin sınaqlarda qayğı, dərin sevgi ilə vətəndaşların yanında olmusunuz, xalqa maddi-mənəvi kömək göstərmisiniz, xalqın qəlbində ümid çırağı yandırmısınız. Siz çiyinlərinizdə Vətənin və xalqın ağır yükünü çəkirsiniz. Vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz uğurlu islahatlar və layihələr, çoxşaxəli fəaliyyətiniz dəyərli və qiymətlidir. Qloballaşan dünyamızda Sizin dərin təfəkkürünüz, uzaqgörənliyiniz, siyasi hadisələrə vaxtında düzgün qiymət vermək bacarığınız, yüksək mədəniyyətiniz inkişaf etmiş bir çox ölkələrin rəhbərlərinin Sizə hörmət və ehtiramını qazandırıb. Dünyanın 200-dən çox ölkəsini cənginə almış koronavirusla mübarizədə vaxtında qabaqlayıcı tədbirlər görməyinizin nəticəsidir ki, ölkəmizdə insan itkisi daha az oldu. Əminik ki, xalqımız bir yumruq kimi birləşəcək, bu mübarizədən başıuca çıxacaq. Qələm sahibi kimi şeirlərimin birində yazmışam: "Kim şəriksə Vətənin, xalqının əzabına, yazdıracaq adını insanlıq kitabına". Sizin adınız Vətənin və xalqımızın tarix səhifəsinə qızıl hərflərlə yazılacaq. Siz ən dərin hörmət və ehtirama layiqsiniz. Uca Tanrı Sizi qorusun!".

Ağsu rayonunun Bico kəndindən Əməkdar müəllim Yaşar Qarayev: "Hörmətli cənab Prezident, bütün xalqımız kimi Ağsu rayonunun Bico kəndinin sakinləri də Sizin xalqımızın uğurlu sabahına, xoşbəxt gələcəyinə hesablanmış daxili və xarici siyasətinizi ürəkdən bəyənir, Sizə minnətdarlıqlarını bildirirlər. Bu gün Ulu Öndərimizin ruhu ona görə şaddır ki, Siz onun mənsub olduğu, sevdiyi xalqa ləyaqətlə xidmət edirsiniz. Buna görə xalqımız Sizi mərd atanın mərd oğlu kimi tanıyır.

Əziz Prezidentimiz, gördüyünüz işlər o qədər əzəmətli və böyükdür ki, dünyanın hər yerindən görünür. Son illər kəndimizdə də çox böyük işlər görülüb. Məktəb və xəstəxana binaları istifadəyə verilib, evlərimizə qaz və su xətləri çəkilib, kəndarası yollar asfaltlanıb.

Bu qayğılı günlərdə də aztəminatlı, həssas təbəqəyə hər cür qayğı göstərilir. Bütün işlərinizə görə kənd sakinləri adından Sizə "Çox sağ olun!" deyir, hörmət və ehtiramımızı bildiririk".

Sumqayıt şəhərindən şagird Səid Qüdrətli: "Möhtərəm cənab Prezident, Sizin dünyanın çətin sınaq mərhələsində hadisələri öncədən görməyinizi və qabaqlayıcı tədbirlər görməyinizi alqışlayır və dərin minnətdarlığımı bildirirəm. Bu tədbirlər təhlükəli virusun Azərbaycanda geniş yayılmasına imkan vermədi. İnanıram ki, Sizin sayənizdə Azərbaycan xalqı bu pandemiyaya qalib gələcək və dövlətimiz gündən-günə çiçəklənəcək. Öz adımdan Sizə, aidiyyəti dövlət qurumlarına və birlik göstərən xalqıma təşəkkür edirəm. Hörmətli Prezident, bu çətin vaxtda xalqımız üçün gördüyünüz işləri dəyərləndirməyi özümə borc bildim. Sizə təşəkkür edir, möhkəm cansağlığı arzulayıram".

Qubadlı rayon Saray kənd tam orta məktəbinin müəllimi Zülfiyyə Məmmədova: "Hörmətli cənab Prezident, bütün dünyanı dəhşətə gətirən COVID-19 pandemiyası ilə əlaqədar həyata keçirdiyiniz tədbirlər xalqımıza olan məhəbbət və sevginizin təzahürüdür. Azərbaycan koronavirusla mübarizədə ağır nəticələrlə üzləşmədi. Bu da Sizin ulu öndər Heydər Əliyev məktəbindən öyrəndiyiniz dərin siyasi, diplomatik biliyiniz və vətənsevərliyiniz sayəsində mümkün oldu. Aztəminatlı ailələrə verilən müavinətlər, koronavirus xəstələrinin dövlət hesabına müalicəsi, əhalinin həssas qrupuna aid olan tələbələrin təhsil haqlarının dövlət hesabına ödənilməsi, kommunal ödənişlərə edilən güzəştlər insanların Sizə inamını daha da artırdı. Sizin və ölkəmizin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın xalqa ünvanladığınız müraciətləriniz həqiqətən bizim birlikdə güclü olduğumuzu sübut etdi. Var olasınız, cənab Prezident! Var olasınız ki, Azərbaycanımızın adını həmişə daha yüksəklərə ucaldasınız. Dünyamıza, ölkəmizə, Sizə, ailənizə və doğmalarınıza sağlam həyat diləyirəm. Sizə təşəkkür edirəm".

Bərdə rayonunun Cəyirli kəndindən şagird Nurlan İlyaslı: "Hörmətli cənab Prezident, Sizə Bərdə rayonunun Cəyirli kəndindən yazıram. Səkkizinci sinifdə oxuyuram. Əvvəllər də gördüyünüz işlərdən ruhlanaraq Sizə məktubla müraciət etmişdim. Sizin Sərəncamınızla banklara borcu olan şəxslərə hərtərəfli kömək edilməsi üçün hazırlanmış plan məni çox təsirləndirmişdi. Buna laqeyd qala bilməmiş, bir məktəbli, gələcəyin əsgəri kimi Sizə minnətdarlıq məktubu yazmışdım. Hazırda da Sizin respublikamızda apardığınız işlər məni yenidən şövqə gətirib. Buna görə də yenidən minnətdarlıq məktubu yazmaq qərarına gəldim. Məlum COVID-19 virusunun ölkəmizdə qarşısının alınması məqsədilə verdiyiniz sərəncam və fərmanları ailəmlə birlikdə dəstəkləyirik. Sizin gördüyünüz tədbirlər nəticəsində ölkəmizdə itki daha az oldu, sahibkarlara, fermerlərə dəyən zərər Sizin Sərəncamınızla görülən tədbirlər sayəsində qarşılanır. Xalqımızın yaşayış səviyyəsinin aşağı düşməməsi üçün gördüyünüz işlər göz qabağındadır.

Cənab Prezident, bu çətin dövrdə Siz bizim xalqımıza ata, baba, qardaş, doğma, əziz övladlarınız kimi yanaşırsınız, hamının çətinliyini, problemini öz probleminiz kimi qəbul edirsiniz. Hörmətli Mehriban xanımın xalqımıza ünvanladığı müraciət, həmin müraciətin mətni bir ayrı mövzudur. Mehriban xanım öz müraciətində Azərbaycan xalqına bir nənə, ana, bacı kimi müraciət etdiyini göstərdi. Həmin müraciəti həvəslə oxudum, hər ikinizi sevməkdə yanılmadığımı bir daha anladım. İnanıram ki, Sizin sayənizdə tezliklə COVID-19 virusundan qurtulacaq, yenidən məktəbə gedəcəyik. Məktəbli olsam da, daim Sizinləyəm. Siz mənə çox doğma insansınız".

Bakının Xəzər rayonundan Mehman Mehtiyev və Adil Xaliqov yazırlar: "Hörmətli cənab Prezident, koronavirusla mübarizə dövründə xalqımızın Sizə bəslənən ümidlərini bir daha doğrultdunuz, bizi böyük bir bəladan xilas etməkdəsiniz. Sizi dəstəkləyir, bu şərəfli və məsuliyyətli işinizdə Sizə uğurlar arzulayırıq. Sizin tərəfinizdən görülən qabaqlayıcı tədbirlər pandemiya bəlasına qarşı çox səmərəli oldu. Bu virus heç kimin gözləmədiyi anda ortaya çıxdı. Lakin hər kəsin gözlədiyi kimi, Siz bu çətinliyə də etibarlı sipər oldunuz, xalqımızı qorudunuz, ölkəmizi böyük bir təhlükədən xilas etdiniz. Allah Sizə hər zaman kömək olsun!".

Hacıqabul rayonunun sakini Nazim Zeynalov: "Hörmətli cənab Prezident, dünyanı cənginə alan koronavirus pandemiyasının ölkəmizə təsirinin azaldılması istiqamətində Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində çox mühüm işlər görülüb.

Ardı Səh. 3

## Rəsmi xronika

Prezident İlham Əliyev İlham Quliyevin "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətlərinə görə İlham Ərdəbil oğlu Quliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilir.

***

Prezident İlham Əliyev Azərbaycan - Rusiya Federasiyası dövlət sərhədində "Xanoba" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Vətəndaş məktubu: "Bir daha gördük ki, xalq-Prezident vəhdəti sarsılmazdır"

Əvvəli Səh. 2

Sizin "Mənim üçün Azərbaycan vətəndaşının sağlamlığının qorunması, onun təhlükəsizliyinin təmin olunması hər şeydən üstündür" sözləriniz öz xalqının taleyinə ürəkdən yanan müdrik rəhbər, dövlət başçısı kimi çətin gündə Azərbaycanın hər bir vətəndaşına sevginizi, qayğınızı ifadə edir. Azərbaycanda virusun qeydə alındığı gündən bütün qüvvələr səfərbər edilərək xüsusi karantin rejimi tətbiq olundu. Sizin təşəbbüsünüzlə Türk Şurasının videokonfrans vasitəsilə keçirilən Zirvə görüşündəki ehtəli çıxışınızla ölkələri əməkdaşlığa çağırdınız. Bütün bunlar sübut edir ki, apardığınız uğurlu siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı dayanır. Xalqımızın sağlamlığı, təhlükəsizliyi naminə göstərdiyiniz fədakarlığa, yüksək qayğıya görə rayonumuzun sakinləri adından Sizə təşəkkür edirik. Bu çətin günlərdə Siz xalqımıza dayaqsınız, xalqımız da Sizə güvənir, Sizinlə qürur duyur. Qürur duyuruq ki, dar məqamda düzgün qərar qəbul edən, xalqı təhlükədən qoruyan Sizin kimi Prezidentimiz, rəhbərimiz var. Ulu Tanrı Sizi qorusun!".

Sabirabad rayonunun Qalağayın kəndindən Fazilə Qurbanova: "Hörmətli cənab Prezident, mən gözdən əliləm. Amma Sizin xalqımız üçün etdiklərinizi, bizləri işıqlı sabaha apardığınızı görürəm. Bizi qorxulu bəladan qoruduğunuza görə Sizə təşəkkür etmək istəyirəm.

Cənab Prezident, Sizin müdrik rəhbərliyinizlə nəinki pandemiyaya qalib gələcəyik, hətta işğal altında olan torpaqlarımızı qısa zamanda azad edəcəyik. Siz varsınızsa, bütün problemlər öz həllini tapacaq. Mənim övladım Türkiyədə təhsil alır. Türkiyədə olan bütün tələbələr bu çətin vaxtlarda özlərini tək hiss etmədilər. Siz onlara arxa oldunuz. Çox sağ olun, var olun, cənab Prezident! Biz əlillərə göstərdiyiniz qayğıya görə Sizə xüsusi təşəkkür edirəm. Sizinlə fəxr edirəm".

Ağstafa rayonunun Köçəsgər kəndindən Həzrətəli İbrahimov və Qətibə İbrahimovadövlətimizin başçısına minnətdarlıqlarını bu sözlərlə ifadə edirlər: "Çox hörmətli cənab Prezident, Siz dünyanı bürüyən və böyük təlefatlara səbəb olan koronavirus pandemiyasına qarşı çevik və vaxtında qabaqlayıcı tədbirlər həyata keçirməklə vətəndaşlarımızın yanında olduğunuzu bir daha sübut etdiniz. Həmçinin son günlər əhalinin aztəminatlı hissəsinin sosial rifahının yaxşılaşdırılması üçün imzaladığınız məlum sərəncamlara görə Sizə minnətdarlığımı bildirirəm. Ulu Tanrı Sizi, ailənizi və övladlarınızı qorusun!.

Cənab Prezident, mən bir vətəndaş olaraq Sizin və Mehriban xanımın bu xidmətlərini yüksək qiymətləndirirəm. Ürəkdən inanıram ki, həyata keçirdiyiniz tədbirlər sayəsində xalqımız tezliklə bu ağır xəstəlikdən en az itki ilə qurtulacaq. Bütün bu diqqət, qayğı və dəstəyə görə bir daha Sizə dərin minnətdarlığımı bildirirəm. Ulu Tanrı Sizi, ailənizi, xalqımızı və möhkəm təməlləri ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan qüdrətli dövlətimizi qorusun!".

Tovuz rayonunun Yanıqlı kəndinin sakini Razim Qocayev: "Çox hörmətli cənab Prezident, Sizə ailəmiz adından minnətdarlığımızı bildiririk ki, belə güclü dövlət yaratmısınız və biz bu ölkənin vətəndaşlarıyıq. COVID-19 pandemiyasının dünyada səhiyyəni və sosial durumu iflic etdiyi bir vaxta Siz sübut etdiniz ki, həqiqətən də Azərbaycan güclü dövlətdir. Neftin kəskin ucuzlaşdığı bir zamanda Siz sosial vəziyyəti zəif olan vətəndaşlara birdəfəlik ödənişin edilməsi, xalqın rifahının yaxşılaşdırılması ilə bağlı tapşırıqlar verdiniz. Siz bir daha yenə sübut etdiniz ki, ölkəmizin neftdən asılılığı azalıb.

Cənab Prezident, bütün bunlar Sizin sayənizdədir. Sizə minnətdaram. Biz Sizinlə güclüyük!".

Ağdam rayonundan müəllim Kərim Novruzov: "Hörmətli Prezidentimiz, Azərbaycan vətəndaşlarını bütün dünyanı bürümüş pandemiyanın fəsadlarından qorumaq üçün gördüyünüz təqdirəlayiq tədbirləri alqışlayırıq. Bu gün bütün xalqımızın vətəndaşlıq nümunəsi göstərməsi günüdür. Hər kəs əlindən gələni mövcud şəraitə uyğun olaraq ən yaxşı şəkildə və keyfiyyətlə yerinə yetirməlidir. Bir tarix müəllimi kimi bütün imkanlardan istifadə edərək şagirdlərimin təhsildən geri qalmamaları üçün əlimdən gələni əsirgəmirəm. Bundan başqa, dövlətimizin bu bəladan qorunması üçün istənilən tapşırığınızı yerinə yetirməyə hazıram. Sizə uzun ömür, cansağlığı və xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar diləyərək, deyirəm ki, getdiyiniz yol haqq yoludur. Bu yol Heydər yoludur və bu yolda Sizinləyik!".

Bakı şəhərinin Nərimanov rayonundan Bəylər Əzimov: "Möhtərəm cənab Prezident, son günlər bəşəriyyətin bəlasına çevrilən COVID-19 infeksiyasının Azərbaycanda yayılmasının qarşısının alınması, vətəndaşların sağlamlığının qorunması üçün həyata keçirilən sosial təcrid tədbirlərinə dəstək olaraq həmrəylik nümayiş etdirməyiniz xalqımız tərəfindən yüksək qiymətləndirilir. Pandemiyaya qarşı mübarizə çərçivəsində Sizin rəhbərliyinizlə respublikamızda qabaqlayıcı tədbirlər görülür, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması məqsədilə zəruri preventiv və profilaktik işlər həyata keçirilir. Ümumdünya Səhiyyə Təşkilatının koronavirus təhlükəsi ilə əlaqədar "Evdə qal, həyatları xilas et!" çağırışı ilə yaşı 65-dən yuxarı insanlara qayğı və diqqətin göstərilməsi təşəbbüsünə qoşulan Azərbaycan gəncləri də Sizin atdığınız qətiyyətli addımları, xalqımıza göstərdiyiniz diqqəti və qayğını dəstəkləyirlər. Tibb işçilərimiz istər xəstəxanalarda, istərsə də karantində olan və müalicə alan vətəndaşlarımızla xüsusi maraqlanır, onların tezliklə sağalıb ailələrinin yanına qayıtmaları üçün əllərindən gələni edirlər.

Cənab Prezident, əminik ki, "Biz birlikdə güclüyük!" çağırışınızla koronavirusa tez bir zamanda qalib gələcəyik. Mən gənclər adından Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildirir, müstəqil Azərbaycanımızın tərəqqisi naminə fədakar fəaliyyətinizdə uğurlar arzu edirəm".

Şəmkir rayonunun Dağ Cəyir kəndinin sakini Müslüm Ağaliyev: "Hörmətli cənab Prezidentimiz İlham Əliyev, bu çətin zamanlarda xalqın yanında olduğunuza, koronavirusla mübarizədə çox önəmli qabaqlayıcı tədbirlər həyata keçirdiyinizə görə ailənizə və doğmalarımızın adından Sizə təşəkkür edirik. Sizinlə çiyin-çiyinə çalışan, kiçiklərə sevgi, böyüklərə hörmətlə yanaşmaqla hər birimizə nümunə olan dəyərli Mehriban xanıma, öz pozitivliyi ilə gənclərimizə dəstək olan övladlarınıza cansağlığı arzu edirəm.

Dahi ümummilli lider, öz ideyaları ilə böyük bir siyasi məktəb qoyub getmiş ulu öndərimiz Heydər Əliyevin adı hər zaman qəlbimizdə ən yüksəklərdədir. Təbii ki, onun məktəbini keçmiş bir insan, xalqına sədaqətlə xidmət edən bir Prezident Sizin kimi olmalıdır. Mən Sizinlə fəxr edirəm. Siz ölkəmizi çox yüksək arenalarda layiqincə təmsil edir, atdığınız hər addımla Azərbaycanın adını daha yüksəklərə qaldırırsınız. Tutduğunuz şərəfli yolda Sizə uğurlar, xalqımıza xoşbəxt, firavan gələcək arzu edirəm. Biz Sizinləyik!

Cənab Prezidentimiz, ən böyük diləyim işğal altındakı torpaqlarımızın tezliklə azad olunmasıdır. Ana ocağımızı, ata yurdumuzu azad görmək istərdik. Ulu Tanrıdan hər gün bunu diləyirəm".

Salyan şəhərinin sakini Cavid Səmədli: "Cənab Prezidentim, Azərbaycanın əldə etdiyi uğurların əsas təminatçısı insan kapitalına, xüsusilə də yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclərə göstərilən diqqət və dəstəkdir. Çünki gənclik daim axtarışda olan, yeniliyi sevən, ideyalarla zəngin bir qüvvədir. Siz bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi yolunda gənclərə böyük meydan verilməsinin daim tərəfdarı olmuş, onlara bunun üçün hər cür şərait yaratmışınız. Gənclərimiz də bu imkanlardan yararlanır, cəmiyyətin inkişafı prosesinin avanqardına çevrilirlər. Dövlətimizin koronavirusla mübarizdə apardığı bu çətin günlərdə də gənclər üzərlərinə düşən məsuliyyəti dərk edir, xüsusi karantin rejimi çərçivəsində qoyulan məhdudiyyət tədbirlərinə ciddi əməl edirlər. Siz də öz növbənizdə belə bir vaxtda xalqımıza arxa-dayaq oldunuz, təhlükəsizliyimiz üçün əlinizdən gələni əsirgəmədiniz. Xalqımıza göstərdiyiniz dəstəyə və qayğıya görə Sizə və Mehriban xanıma sonsuz təşəkkürümüzü bildiririk".

Lənkəran şəhərinin Şiləvar kəndindən Zaur Hüseynov: "Möhtərəm cənab Prezident, bu gün koronavirus infeksiyasına qarşı mübarizə çərçivəsində Azərbaycanda həyata keçirilən operativ mübarizə tədbirləri dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir. Dünya ölkələrinin koronavirus pandemiyasının yaratdığı böyük çətinliklərdən əziyyət çəkdikləri bir vaxtda Azərbaycan xalqının sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması istiqamətində Sizin rəhbərliyinizlə görülən işlər, xüsusilə də genişmiqyaslı sosial dəstək tədbirləri nümunəvi xarakter daşıyır. Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis olunması, yeni xəstəxanaların açılışı, modul tipli 6 xəstəxananın tikintisinə başlanılması Azərbaycanın bütün dünyanı təhdid edən bəladan az zərərlə çıxacağından əminlik yaradır. Yürüdülən müdrik siyasət, görülən düzgün mübarizə tədbirləri dünyanın aparıcı dövlətləri tərəfindən təqdir edilməkdədir. Ölkəmizin hər bir vətəndaşına örnək sayılacaq fəaliyyətinizə görə Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzi İşçilərinin Həmkarlar İttifaqının üzvləri adından Sizə təşəkkür edir və işlərinizdə uğurlar arzulayırıq. Biz əminik ki, Sizin rəhbərliyinizlə bu sınaqdan da üzüağ çıxacağıq. Tanrı Sizi, xalqımızı və dövlətimizi qorusun!".

Cəbrayıl rayonu, Hovuslu kəndindən Köçəri Tumasov: "Möhtərəm və əziz Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev, Sizin "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözləriniz 17 il ərzində sürətlə inkişaf edən Azərbaycanın bütün istiqamətlər üzrə müasirləşməsindəki real fəaliyyətinizlə öz təsdiqini tapıb. COVID-19 pandemiyası dövründə bir daha bütün Azərbaycan vətəndaşlarına açıq-aydın bəlli oldu ki, Siz nəinki hər bir azərbaycanlının Prezidenti, həmçinin hər bir azərbaycanlı ailəsinin doğması, əzizi, dayağı, dəstəyi, güvən yeri, istinadgahısınız.

Cənab Prezident, hər zaman xalqımıza dayaq olduğunuz üçün Sizə həm öz adımdan, həm də ailəmizin adından təşəkkürümü bildirirəm. Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi varisi olaraq Siz Ulu Öndərin daxili və xarici siyasət strategiyasını layiqincə davam etdirirsiniz. Bu şərəfli yolda, ölkəmizin uğurlu gələcəyi naminə gordüyünüz bütün işlərdə Sizə müvəffəqiyyətlər arzulayıram. Var olasınız. Var olasınız ki, Azərbaycanımızı daha yüksəklərə ucaldasınız. Var olasınız ki, Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə Qarabağımızda bayrağımızı dalğalandıraq. Dünyamıza, ölkəmizə, Sizə və doğmalarınıza sağlıq və bir daha sağlıq diləyirik".

Gəncə şəhərinin sakini Elnur Həmidov: "Hörmətli Cənab Prezident, əvvəla Sizi salamlayır və bu məktubumla Sizə dərin təşəkkürümü bildirirəm. Dünyanı bürüyən pandemiya dövründə Sizin və Mehriban xanım Əliyevanın hər zamankı kimi xalqın yanında olmağınız məni də qürurlandırdı. Ulu öndərimiz Heydər Əliyev kimi, məhz Sizin də düşünülmüş iqtisadi, siyasi, sosial addımlarınız bu gün ölkəmizdə firavan həyat sürməyimizə imkan yaradıb. Hazırda Sizin tapşırığınıza əsasən dövlətin bütün imkanları xalqımızı bu bəladan qorumağa və yarana biləcək sosial problemlərin həllinə yönəlib. Bu gün bir daha gördük ki, xalq-Prezident vəhdəti sarsılmazdır.

Cənab Prezident, əminik ki, Sizin qətiyyətli addımlarınız, xalqımıza qayğınız sayəsində bu sınaqdan da üzüağ çıxacağıq. Gördüyünüz bütün işlərə görə çox sağ olun, cənab Prezident! Bütün ailəmiz adından Sizə minnətdarıq. Yaxşı ki, varsınız. Nə yaxşı ki, bu ölkənin Prezidenti Sizsiniz. Allah Sizi və ailənizi qorusun!".

Göyçay rayonunun Bığır kəndinin sakini Elton Məmmədov: "Hörmətli cənab Prezident, Siz ulu öndərimiz Heydər Əliyevin uğurlu siyasətini əzmlə, böyük iradə ilə davam etdirərək, müstəqil Azərbaycanımızı gücləndirirsiniz. Ölkəmizin gələcəyinə həssas yanaşmağınız sayəsində pandemiyanın Azərbaycanda geniş yayılmasının qarşısını almaq üçün vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər artıq öz müsbət təsirini göstərməkdədir. Sizin siyasətinizin əsasında Azərbaycan xalqı və onun rifahı dayanır. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 19 mart tarixli Sərəncamınızdan irəli gələn vəzifələrin həlli məqsədilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı verilmiş qərar biz valideynlər tərəfindən çox yüksək qiymətləndirilir.

Cənab Prezident, pandemiya ilə mübarizədə göstərdiyiniz fədakarlıq tarixə qızıl hərflərlə yazılacaq. Bizimlə yaxından maraqlandığınız, bizə qayğı göstərdiyiniz və hər bir zaman olduğu kimi, yenə də vətəndaşlarımızın rifahı naminə qərarlar verdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk".

# Azərbaycan və Litva prezidentləri videobağlantı formatında danışıblar

***Aprelin 27-də Litva tərəfinin təşəbbüsü ilə Litva Respublikasının Prezidenti Qitanas Nauseda ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev videobağlantı formatında danışıblar. Litva Prezidenti Qitanas Nauseda Ramazan ayı münasibətilə Azərbaycan Prezidentini təbrik etdi.***



Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi. Dövlət başçıları ikitərəfli münasibətlərə toxunaraq, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, iqtisadi-ticarət əlaqələrinin də bu səviyyəyə qaldırılmasının önəmini qeyd etdilər və pandemiya başa çatdıqdan sonra Hökumətlərarası Komissiyanın iclasının keçirilməsinin vacibliyini bildirdilər.

Litva Prezidenti Qitanas Nauseda Şərq Tərəfdaşlığına üzv ölkələrin bu ilin iyun ayında keçirilməsi nəzərdə tutulan Zirvə toplantısına hazırlıq dövründə Şərq Tərəfdaşlığı Proqramı və ümumilikdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin vəziyyəti ilə bağlı Prezident İlham Əliyevdən fikirlərini bölüşməyi xahiş etdi.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak etməklə bərabər, Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin inkişafına önəm verir və bu təşkilatın doqquz ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə dair sənədlər imzalamışdır. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədi siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat və digər sahələri əhatə edir.

Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıldı. Litva Prezidenti Qitanas Nauseda pandemiyaya qarşı mübarizədə Azərbaycanın əhəmiyyətli uğurlar qazandığını bildirdi. Prezident İlham Əliyev koronavirus pandemiyasının başladığı ilk günlərdən Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasda olduğunu və ölkəmizin pandemiya ilə mübarizədə beynəlxalq səyləri və əməkdaşlığı dəstəklədiyini vurğuladı.

# BERNAMA agentliyi: Azərbaycan Prezidentinin təşəbbüsü Qoşulmama Hərəkatının üzv dövlətləri tərəfindən dəstəklənib

***Malayziyanın BERNAMA rəsmi informasiya agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Təmas Qrupu formatında koronavirusa qarşı mübarizəyə həsr olunmuş Zirvə görüşünün keçirilməsi təşəbbüsü barədə geniş məqalə yayıb.***

AZƏRTAC xəbər verir ki, agentlik Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla Zirvə görüşünün cari il mayın 4-də "COVID-19-a qarşı birlikdəyik" devizi altında keçiriləcəyini bildirib. Qeyd olunub ki, koronavirus pandemiyası şəraitində beynəlxalq həmrəyliyin gücləndirilməsi, o cümlədən dövlətlərin və beynəlxalq təşkilatların səylərinin səfərbər edilməsinin vacibliyi fonunda Azərbaycan Prezidentinin təşəbbüsü Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib.

Məqalədə COVID-19 pandemiyasına qarşı beynəlxalq mübarizəyə Azərbaycanın verdiyi müsbət töhfələrdən bəhs olunaraq, cari il aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının sədri olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş fövqəladə Zirvə görüşünün əhəmiyyəti vurğulanıb.




Həmçinin pandemiyaya qarşı mübarizədə beynəlxalq səyləri dəstəkləmək məqsədilə Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatının cavab tədbirləri fonduna 5 milyon ABŞ dolları dəyərində könüllü maliyyə ianəsi barədə məlumat oxucuların diqqətinə çatdırılıb. Məqalənin tam mətni ilə bu link vasitəsilə tanış olmaq olar: https://www.bernama.com/en.

# Misir qəzeti Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Sammitinin çağırılmasından yazıb

ALDIPLOMASY

***Misirin "Aldiplomacy" qəzeti Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Sammitinin çağırılmasından yazıb. Qeyd edək ki, Misir Ərəb Respublikası bu Hərəkatın əsasını qoyan ölkələrdən biridir və onun fəaliyyətində yaxından iştirak edir. Sammitdə Misir Prezidenti Əbdülfəttah əs-Sisinin iştirak edəcəyi gözlənilir. AZƏRTAC xəbər verir ki, nəşrin saytında yerləşdirilmiş məqalədə Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusa qarşı mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçiriləcəyi bildirilir.***

Qeyd olunur ki, Qoşulmama Hərəkatına 120 dövlətin üzv olduğunu nəzərə alaraq, Zirvə görüşü regional coğrafi təmsilçilik prinsipi əsasında Təmas Qrupu formatında keçiriləcək. BMT, Afrika İttifaqı, Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq təşkilatların rəhbərliyi də bu Zirvə görüşündə iştirak edəcək.



# Abuzər Alı oğlu Xələfov

***Azərbaycanın təhsil ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycanda kitabxana işi üzrə tanınmış tədqiqatçı, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov 2020-ci il aprelin 27-də ömrünün 89-cu ilində vəfat etmişdir.***

Abuzər Xələfov 1931-ci il dekabr ayının 25-də Qərbi Azərbaycanın Göyçə mahalındakı Cil kəndində anadan olmuşdur. O, Göyçə mahalının Toxluca kəndində orta məktəbi bitirdikdən sonra 1950-1955-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1955-ci ildə Azərbaycan Dövlət Universitetində başlayan Abuzər Xələfov bütün sonrakı taleyini bu təhsil ocağı ilə bağlayaraq, burada müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışmışdır. O, 1961-ci ildə Azərbaycanda kitabxana işinin tarixi mövzusunda namizədlik və 1975-ci ildə doktorluq dissertasiyaları müdafiə etmişdir. Respublikamızda ali təhsilli kitabxanaçı-biblioqraf və kitabxanaçı kadrların hazırlığını həyata keçirən fakültənin yaradılmasında Abuzər Xələfovun əvəzsiz xidmətləri vardır. Abuzər Xələfovun fəal iştirakı ilə 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilmiş və o, fakültənin ilk dekanı seçilmişdir. Abuzər Xələfov 1962-1970-ci və 1980-1995-ci illərdə həmin fakültənin dekanı, eyni zamanda, 1963-cü ildən 2016-cı ilədək uzun dövr ərzində universitetin kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli fəaliyyət göstərmişdir.

Azərbaycanda kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf yolu professor Abuzər Xələfovun kitabxana-informasiya fəaliyyəti üçün elmi-təcrübi əhəmiyyətə malik tədqiqatlarında başlıca yer tutmuşdur. Alim ölkəmizdə kitabxana işi quruculuğunun müxtəlif problemlərindən bəhs edən çoxsaylı araşdırmaları ilə bu sahənin elmi əsaslar üzərində qurulmasında mühüm rol oynamışdır. Onun kitabxanaşünaslıq sahələrinin formalaşması, həmçinin geniş profilli kitabxana işçilərinin hazırlanması ilə bağlı fikir və mülahizələri bu istiqamətdə məsələlərin optimal həllinə töhfə olmuşdur.

Abuzər Xələfov kitabxana işinin tarixinə, kitabxanaşünaslığın nəzəriyyəsi və metodikasına dair 500-ə yaxın əsərin, o cümlədən monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin müəllifi idi. O, yüksək hazırlıqlı mütəxəssislərin yetişdirilməsi işinə xüsusi diqqət göstərirdi. Kitabxanaçılıq və biblioqrafiyaşünaslıq istiqamətləri üzrə respublikada formalaşmış kadrların əksəriyyəti onun yetirmələridir.

Professor Abuzər Xələfovun zəngin pedaqoji-elmi fəaliyyəti layiqincə qiymətləndirilmişdir. O, "Əməkdar mədəniyyət işçisi" və "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şərəf" və "Şöhrət" ordenləri ilə təltif edilmişdir.

Nüfuzlu pedaqoq və alim, səmimi insan Abuzər Alı oğlu Xələfovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

*İlham Əliyev*
*Mehriban Əliyeva*
*Əli Əsədov*
*Sahibə Qafarova*
*Samir Nuriyev*
*Eldar Əzizov*
*Fərəh Əliyeva*
*Ceyhun Bayramov*
*Elçin Babayev*
*Anar İsgəndərov*
*İzzət Rüstəmov*
*Kərim Tahirov*

# Görkəmli oftalmoloq alim, nəcib və xeyirxah ziyalı

## *Bu gün böyük alim Zərifə xanım Əliyevanın doğum günüdür*

***Zaman-zaman öyrəniləcək və tədqiq olunacaq bir məktgb yaratmış Azərbaycan oftalmoloqu, əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasıqın həqiqi üzvü, əməkdar elm xadimi, Azərbaycan qadını kimi Xeyirxahlıq, Ziyalılıq, Analıq simvoluna çevrilən akademik Zərifə xanım Əliyevanın 28 aprel tarixi doğum günüdür. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani kefiyyətləri, elmi fəaliyyəti nurdan yaranan, varlığı nur olan təkrarsız bir insan olaraq xatırlanır. Təsadüfi deyildir ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyət də insanlara nur bəxş etmək olub.***



Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Kainat qədər geniş qəlbindən və zəkasından çağlayan ilahi nuru onu tanıyanların mənəvi dünyasına daim nur saçır. Beynəlxalq aləmdə cəm olunaraq bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli, zəngindir. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir.

Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda ona qarşı təsirli müalicə üsulları isə yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apradığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Eyni zamanda, o, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neftkimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir.

Zərifə xanım bu problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyanın əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Elmi tədqiqatların nəticəsi olaraq Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail oldu. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir.

Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir.

Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür, onun arzularından biri də yeni oftalmoji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Tibb elmləri doktoru Zəhra Əliyevanın, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professsor A.N. Dobromislovun və başqalarının yazılarında alimin şərəfli, zəngin elmi fəaliyyətinin nailiyyətərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb.

Moskva oftalmoloji məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır.

Bəli, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.

Zərifə Əliyeva həkimlik etikası ilə bir nümunə idi. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıqaydın biruzə verirdi.

Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım işinin gərginliyinə baxmayaraq həmişə bir qadın olaraq mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çaları bir ömrünü yazılı salnamələrdə əks etdirdi. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva, Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında dərindən və qabarıq duyulurdu.

Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüyüb - ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Zərifə xanım ən yüksək mənəvi hazırlığa malik bir xanım və ana idi.

Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli, zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya, ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevirildi. Bu dəyərlər içərisində güclü, fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyələri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi.

**Zümrüd Bayramova**

# İlham Əliyev: "Vətəndaşların rahatlığı hər şeydən üstündür"

***Vətəndaşların rahatlığı hər şeydən üstündür. Ona görə ən müasir avtobuslar alınır, nəqliyyatla və təhlükəsizliklə bağlı çox ciddi tədbirlər görülür. Bu işləri davam etdirin. Şəhərimizin hər bir yerində ən yüksək səviyyəli nəqliyyat şəraiti yaradılmalıdır. AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 96-cı kitabında yer alan bu fikri dövlətimizin başçısı 2019-cu il sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılış mərasimində söyləyib.***




Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin avqustundan oktyabr ayınadək olan dövrü əhatə edir.

Çoxcildliyin 96-cı kitabına Prezident İlham Əliyevin Rusiya Federasiyasına və Türkmənistan Respublikasına işgüzar səfərləri zamanı Soçinin Valday şəhərində və Aşqabadda keçirilən toplantılarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi çıxışı, bu ölkələrin rəhbərləri ilə görüş və danışıqlarına, hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə, habelə "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarına müsahibəsinə dair materiallar toplanıb.

Kitaba dövlət başçısının "Əsrin müqaviləsi"nin 25 illiyinə və Neftçilər Gününə həsr olunmuş mərasimdə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə görüşündə söylədiyi geniş nitqlərinin mətnləri və ölkəmizə gələn türkdilli dövlətlərin rəhbərləri ilə görüş və danışıqları haqqında ətraflı məlumatlar daxil edilib.

Nəşrdə, həmçinin Azərbaycan Prezidentinin Rusiya, Türkiyə, Gürcüstan, Belarus, Çin, Fransa, İsveçrə və digər dövlətlərin, İslam Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Maliyyə Korporasiyasının yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi barədə xəbərlər verilib.

Prezident İlham Əliyevin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Oxucu 96-cı kitabda dövlətimizin başçısının Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin, Bədii Gimnastika üzrə 37-ci dünya çempionatının, Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılış mərasimlərində iştirakına dair materiallarla da tanış ola bilər.

Prezidentin Qurban bayramı münasibətilə xalqımıza, Roş-Ha-Şana bayramı ilə əlaqədar Azərbaycanın yəhudi icmasına təbrik məktubları və digər məktublar da yeni nəşrə daxil edilib. Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib. "Azərnəşr" tərəfindən buraxılan 96-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan və Qırğızıstan XİN rəhbərləri arasında telefon danışığı olub



***Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun Qırğızıstanın Xarici İşlər naziri Çingiz Aydarbekov ilə telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, söhbət zamanı tərəflər ikitərəfli və çoxtərəfli formatda mövcud əməkdaşlıq gündəliyini müzakirə ediblər.***

Nazirlər mövcud vəziyyətə toxunaraq, hər iki dövlətin COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində gördüyü tədbirlər ətrafında fikir mübadiləsi aparıb və bu xüsusda, qarşılıqlı dəstək və əməkdaşlığın, təcrübə mübadiləsinin vacibliyini vurğulayıblar.

Telefon danışığı zamanı Azərbaycan və Qırğızıstanın müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının perspektivləri müzakirə olunub və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə dair razılıq ifadə edilib.

# "İpoteka krediti olan vətəndaşlar artıq güzəştlər üçün müraciət edə bilərlər"

"Banka müraciət etməklə öz kreditinin restrukturizasiyasını həyata keçirə bilər. Artıq bu gündən (dünəndən) etibarən bunun edilməsi mümkündür". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü deputat Vüqar Bayramov İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinə restrukturizasiyası imkanlarının yaradılması ilə bağlı danışarkən deyib.

Onun sözlərinə görə, Mərkəzi Bankın təsdiq etdiyi paketdə ipoteka kreditləri üzrə güzəştlərin tətbiq edilməsi nəzərdə tutulub: "Mərkəzi Bank həm biznes kreditləri, həm də ipoteka kreditləri üzrə güzəştləri, eləcə də kreditlərin restrukturizasiyasını təstiq edib. Eyni zamanda istehlak kreditləri üzrə kommersiya banklarına sentyabrın 30-dək vətəndaşların ödəmələrində yubanma halları olduqda cərimə və faizlərin yazılmaması tövsiyyə olunub. İpoteka kreditləri isə İpoteka və Kredit Zəmanət Fondu tərəfindən götürülən kreditlərin restrukturizasiyası nəzərdə tutulub. Kredit götürənlər müraciət etdikdən sonra həmin kreditlərin restrukturizasiyası həyata keçiriləcək".

Millət vəkili vurğulayıb ki, bu zaman pandemiya dövründə sentyabrın 30-na qədər ödəmələrdə müddətli güzəştlərin verilməsi, faiz və cərimələrin yazılmaması, eyni zamanda şikayətlərə yenidən baxılması da mümkündür: "İpoteka krediti olan vətəndaşlarımız restrukturizasiyadan, yəni, yenidən qiymətləndirilmədən və ya güzəştdən istifadə etmək istəyirsə o zaman birbaşa banka müraciət etməlidir. Banka müraciət etməklə öz kreditinin restrukturizasiyasını həyata keçirə bilər. Artıq bu gündən etibarən bunun edilməsi mümkündür və Fond vasitəsilə banklardan kredit götürən vətəndaşlarımız bu imkandan faydalana bilərlər".

# Hikmət Hacıyev: "Azərbaycan COVID-19 ilə mübarizədə uğur hekayələrindən biridir"



Azərbaycan COVID-19 ilə mübarizədə uğur hekayələrindən biridir. SİA xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev TRT World xəbər telekanlına müsahibəsində deyib. H.Hacıyev bildirib ki, Azərbaycan hökuməti yanvarın ortalarından bəri müəyyən addımlar atır: "Bu, Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi strateji baxış, habelə COVID-19 ilə əlaqəli risklərin qiymətləndirilməsi və təhlili ilə əlaqədardır. Nəticədə deyə bilərik ki, Azərbaycan daha yaxşı vəziyyətdədir. Bu, COVID-19 ilə mübarizədəki uğur hekayələrindən biridir.

Azərbaycan hökuməti tərəfindən görülən işlərə gəlincə, H.Hacıyev qeyd edib ki, COVID-19 böhranı ilə mübarizədə milli koordinasiya son dərəcə vacibdir: "Buna görə də Azərbaycan Prezidentinin sərəncamı ilə Nazirlər Kabineti yanında bütün dövlət qurumlarının fəaliyyətlərini əlaqələndirmək üçün işçi qrupu yaradılıb. Əlbəttə, karantin tədbirləri də son dərəcə vacibdir. Burada Azərbaycanın misilsiz təcrübəsini bölüşmək istərdim. Yanvarın sonu və fevralın əvvəlindən Azərbaycana gələn bütün azərbaycanlıları və ya xarici vətəndaşları xüsusi karantin zonalarında yerləşdirməyə başladıq. Bunun üçün dörd və beşulduzlu otellər ayrılıb. Fevral ayının ortalarından etibarən müəyyən məhdudiyyətlər tətbiq olunur. Mart ayının əvvəlindən etibarən bütün təhsil müəssisələri bağlanıb və sosial izolyasiya tədbirləri tətbiq edilib, hərəkət məhdudlaşdırılıb. Bütün bu tədbirlər sayəsində Azərbaycanın uğur hekayəsinə səmərəli töhfələr verdik".

# Akademik: "Koronavirusla nümunəvi mübarizə dövlətimizin başçısının uzaqgörən siyasətinin nəticəsidir"



Dünyanın qabaqcıl ölkələrinin koronavirus pandemiyasından əziyyət çəkdiyi bir vaxtda ölkəmizdə ona qarşı aparılan nümunəvi mübarizə Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir. Yaranmış vəziyyət vaxtında və düzgün qiymətləndirildi, mühüm addımlar atıldı, lazımi tədbirlər görüldü.

Bu fikri AMEA akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun (AKİ) direktoru, akademik Vaqif Fərzəliyev AZƏRTAC-a müsahibəsində deyib. "Prezident çıxışlarında həmişə qeyd edir ki, ölkəmiz sosial dövlətdir. Atılan hər bir addım dayanıqlı iqtisadi inkişafın tənzimlənməsi ilə yanaşı, xalqımızın sağlamlığının qorunması, onların sosial-maddi rifahının yaxşılaşdırılması məqsədi daşıyır. Pandemiya dövründə atılan təxirəsalınmaz tədbirlərlə bu, bir daha öz təsdiqini tapdı".

Vaqif Fərzəliyev bildirib ki, dövlət başçısının rəhbərliyi ilə respublikamızda bütün sahələri əhatə edən qabaqlayıcı tədbirlər yoluxma və ölüm hallarının çox az olmasına imkan verdi.

# Milli Məclisin Parlamentlərarası İttifaqda nümayəndə heyətinin tərkibi müəyyənləşib

Azərbaycan Respublikasının Milli Məclisi parlamentin beynəlxalq əlaqələrinin inkişafına böyük önəm verir. Nümayəndə heyətlərinin Milli Məclisin üzvü olduğu beynəlxalq qurumlarda fəaliyyəti parlament rəhbərliyinin daim diqqət mərkəzindədir.

Milli Məclisin Parlamentlərarası İttifaqındakı nümayəndə heyətinin tərkibi müəyyənləşib. Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qurumda nümayəndə heyətinə Milli Məclis Sədrinin müavini Adil Əliyev rəhbərlik edəcək. Nümayəndə heyətinin tərkibinə deputatlardan Elnur Allahverdiyev, Şahin İsmayılov, Tural Gəncəliyev, Naqif Həmzəyev, Rəşad Mahmudov, Kamran Bayramov, Zahid Oruc və Məzahir Əfəndiyev daxildirlər.

# Pravda.ru: "Azərbaycan koronavirusa öz lideri İlham Əliyevlə qalib gəlir!"

*Artıq bir sıra xarici mətbuat səhifələrində ölkəmizdə COVID-19-la mübarizə reallığında atılan addımların effektliyi ətrafında yazılar, informasiyalar dünya ictimaiyyətinin diqqətinə çatdırılıb və Azərbaycanda pandemiyanın qorxulu epidemiya həddinə keçidinin qarşının qətiyyətlə alınmasının nümunələri bu gün də göstərilməkdədir.*

***COVID-19 adlı yeni tip koronavirusun dünyaya sürətlə yayılmasının ardınca, onunla effektli mübarizə məsələləri ətrafında ciddi fərqlər də görünməyə başladı. Əsasən, onun yayılmasının qarşısının alınması istiqamətində bir sıra ölkələr necə deyərlər, gec tərpəniş göstərdilər və zamanında verilməyən reaksiya istənilməyən nəticələrə - kütləvi yoluxmalara yanaşı, həm də ölüm hallarının artmasına səbəb oldu. Çox az ölkələr oldu ki, onlar pandemiya dövründə soyuqqanlılıq nümayiş etdirməklə yanaşı, həm də operativ qərarlar qəbul edib, təhlükəli infeksiyanın qarşısına sədd çəkməyi bacardılar. Belə ölkələr arasında ən çox nümunə göstərilənlərdən biri və birincisi məhz Azərbaycan oldu.***

### "Hələ koronavirus pandemiyasına qədər Azərbaycanda demək olar ki, həyatın bütün sahələrini əhatə edən böyük islahatlar anonsları verildi və qısa zamanda həmin islahatlar həyata keçirildi"

Rusiyanın nüfuzlu pravda.ru nəşri Azərbaycanda COVID-19-la mübarizə haqqında geniş təhlilli məqalə ilə çıxış edib. Məqalədə qeyd olunur ki, koronavirus bütün dünya üçün bir çağırışdır. Çünki o hətta elə iqtisadiyyatlara ağır zərbələr endirdi ki, həmin iqtisadiyyatlar dünənə qədər məğlubolmaz, dağılmaz kimi görünürdülər. Rusiya nəşri həm də qeyd edir ki, bu sınaqdan çıxmaq heç də asan deyil və hansı ölkənin həyat sferasında, ilk növbədə səhiyyə sistemində boşluqlar olubsa, həmin ölkələr ciddi təhlükələrlə qarşı-qarşıya qalıblar.


АВТОР
ПЕТР ДЕРЯБИН
27.04.2020 08:00

**Хроники COVID-19: Азербайджан — пример эффективности и доверия**

МИР » БЫВШИЙ СССР » АЗЕРБАЙДЖАН

Коронавирус нового типа (COVİD-19) несомненно являясь вызовом для всего мира, больно ударил даже по тем экономикам, которые еще вчера казалась нерушимыми. Везде это испытание оказалось сильнейшим для всех сфер жизни общества, но в первую очередь оно ударило по тем странам, где система здравоохранения оказалась недееспособной или неэффективной. И, как эффект домино, "повалились" все сферы и отрасли стран.

Мы видим что у каждого государства свои подходы и свои методы действий во время пандемии COVID-19. Несомненно то, что сейчас в каждом государстве власть демонстрирует своим гражданам

0 КОММЕНТАРИЕВ
0 ПОДЕЛИЛИСЬ

Стометровая зона отчуждения: драйв на "собянинской дорожке"

Школа онлайн-режима - будет ли толк?

"Biz görürük ki, COVID-19-la mübarizədə hər dövlətin öz nəzəriyyəsi, yanaşma tərzləri və fəaliyyəti var. Əlbəttə ki, hazırda hər ölkə öz vətəndaşlarına böhran vəziyyətində iş qabiliyyətini nümayiş etdirir. Onun effektliyi və xalqın inamı - uğurlu gələcək üçün əhəmiyyətli məsələdir", deyə adıçəkilən nəşr yazır və qeyd edir ki, postsovet məkanında koronavirus pandemiyası ilə bağlı situasiya müxtəlif cür inkişaf edir. Belə ki, ÜST-ün statistikasına görə, məhz postsovet məkanındakı vəziyyət Avropa və ABŞ-dan daha optimistliklə seçilməkdədir.

SİTAT: "Regionda güclü və sabit iqtisadiyyata malik aparıcı dövlət olan qonşu Azərbaycanın nümunəsi maraqlıdır. Hələ koronavirus pandemiyasına qədər Azərbaycanda demək olar ki, həyatın bütün sahələrini əhatə edən böyük islahatlar anonsları verildi və qısa zamanda həmin islahatlar həyata keçirildi".

### Nəşrin məqaləsində həmin faktorlar ayrı-ayrılıqda göstərilib:

Neft sektorunun inkişafı ölkənin iqtisadi inkişafının əsas prioriteti olaraq, iqtisadiyyatın stabilliyinə böyük təminatlar verdi, əhalinin işə düzəlməsi, məşğulluq məsələləri müsbət həllini tapdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə kölgə iqtisadiyyatı ilə mübarizəyə ciddi önəm verildi və bu informasiya texnologiyalarının dövlət oraqnlarındakı şəffaflığını təmin etdi, eləcə də, əhaliyə xidmət məqsədi ilə mərkəzləşdirilmiş elektron-məlumat sistemi yaradıldı və bu iş dövlət başçısı tərəfindən verilən tapşırığa əsasən təkmilləşdirilməklə yanaşı, hazırda da davam etməkdədir. Bütün bu islahatlar və görülən ölçülər ilk növbədə ölkə vətəndaşlarının rifah halının yaxşılaşmasına hesablanıb.

### "Azərbaycan dövləti birmənalı olaraq öz daxili resursları hesabına pandemiya ilə mübarizədə bütün iqtisadi sferalarda effektli ölçü planlarını icra edir"

Qeyd olunur ki, bu hazırlıq həm də ölkədə koronavirusla aparılan uğurlu mübarizənin təminatı kimi də görülə bilər. "Bu gün Azərbaycan dövləti birmənalı olaraq öz daxili resursları hesabına pandemiya ilə mübarizədə bütün iqtisadi sferalarda effektli ölçü planlarını icra edir.

### Pravda.ru Prezident İlham Əliyevin qərarı ilə Nazirlər Kabineti yayında Operativ qərargahın yaradılmasından başlayır:

Kütləvi yoluxmaların qarşısının qalınması üçün praktiki olaraq dərhal respublika daxilində əhalinin yer dəyişməsi vəziyyəti nəzarətə götürülür. Təhsil prosesi, bütün kütləvi tədbirlərin vaxtı dəyişdirildi, ticarət və əyləncə obyektlərinin fəaliyyəti dayandırıldı. Konkret hallarda əhalinin müəyyən edilmiş vaxt çərçivəsində çölə çıxmaları üçün xüsusi karantin rejimi tətbiq edildi. Bakı metripolitenin işi dayandırıldı, ictimai nəqliyyatın hərəkəti məhdudlaşdırıldı.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Prezidentinin bilavasitə nəzarəti altında iqtisadiyyatın bütün sektorlarına bağlı olan geniş spektrdə tədbirlər həyata keçirildi. Onların arasında iş yerlərinin saxlanılması, sahibkarlara fərdi maliyyə dəstəyini, o cümlədən vergi ödənişlərində sadələşdirməsini, sahibkarlara vergi tətillərinin və imtiyazların verilməsini, kreditləşmənin stimullaşdırılmasını və ən əsası - əhaliyə birbaşa sosial dəstəyin verilməsini göstərmək olar.

Bundan əlavə, bu gün dünyada pandemiyadan qorunmaq üçün vasitələrin çatışmazlığı mövcud olsa da, Azərbaycan müstəqil şəkildə ölkəsinin əhalisini bütün qoruyucu vasitələrlə təmin etmək iqtidarındadır.

### Rusiya nəşri Heydər Əliyev Fondunun xüsusi karantin rejimində başlatdığı "Biz birlikdə güclüyük" sosial aksiyasına da toxunaraq, aztəminatlı ailələrə 100 mindən çox qida məhsulları qutularının paylanılması barədə məlumat verib

Prezident İlham Əliyevin və ölkənin Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Azərbaycanda tibbi maskaların istehsalı üçün müəssisə açıldı. Müəssisə gün ərzində 250 min həcmində tibbi maska istehsal etmək gücündədir. O cümlədən, respublikada kifayət qədər miqdarda tibbi spirt, dezinfeksiyaedici məhsullar və s. vasitələr istehsal olunur. Bununla yanaşı, pandemiya dövründə həmin məhsulların xaricdən idxalı da minimuma endirilib.

Virusun müntəzəm diqanostikası üçün, ölkənin birinci xanımı və Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən idarə olunan Heydər Əliyev Fondunun dəstəyi ilə respublikada müasir avadanlıqlara təchiz edilmiş və müvafiq ləvazimatlarla təchiz edilmiş 18 müasir laboratoriya fəaliyyət göstərir.

Koronavirusa yoluxanlar üçün və pandemiya ilə mübarizə məqsədi ilə açılmış, avadanıqlarla təchiz olunmuş 575 yerlik səhiyyə ocağı da atılan mühüm addım olaraq qiymətləndirilir.

Rusiya nəşri Heydər Əliyev Fondunun xüsusi karantin rejimində başlatdığı "Biz birlikdə güclüyük" sosial aksiyasına da toxunaraq, aztəminatlı ailələrə 100 mindən çox qida məhsulları qutularının paylanılması barədə məlumat verib.

### Artıq bu gün ölkədə infeksiyaya yoluxanların dinamikası sağalanların sayından azdır

SİTAT: "Bu, Azərbaycanda qısa müddətdə həyata keçirilən tədbirlərin yalnız az bir hissəsidir. Ona görə də, inamla demək mümkündür ki, Azərbaycan öz lideri İlham Əliyevlə koronavirusa qalib gəlir. Artıq bu gün ölkədə infeksiyaya yoluxanların dinamikası sağalanların sayından azdır. O da elan olunub ki, mayın 4-dən ölkə mərhələli şəkildə xüsusi karantin rejimindən çıxmağa başlayacaq.

Əlbəttə, koronavirus pandemiyası Azərbaycanın iqtisadiyyatına ciddi ziyan vurub. Ancaq buna baxmayaraq, ölkə rəhbərliyi vaxtında ölçülər götürdü və vətəndaşlarının sağlamlıqlarının mühafizəsi, təhlükəsizliyi üçün addımlarını atdı. Bundan əlavə, tətbiq edilən bütün tədbirlər pandemiyanın neqativ təsirlərinin azaldılmasına, milli iqtisadiyyatın pandemiyadan sonrakı inkişafına hədəflənib".

### "Bu cür zəmanətli uğur təcrübəsinin əsasında ölkə rəhbərliyinin açılımı, iqtisadiyyatın şəffaflığı, ictimaiyyətin Prezident ətrafında sıx birliyi və konsolidasiyası, ortaq hədəflər naminə biznes-cəmiyyətin və hakimiyyətin anlaşması dayanır"

"İlham Əliyevin uğurları ÜST-ün baş direktoru Tedros Adxan tərəfindən də qiymətləndirilib. Azərbaycanın apardığı işə yüksək qiymət verilib və nümunə olaraq göstərilib", deyə yazan Rusiya mətbuatı aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə video-konfrans şəklində keçirilən Türkdilli ölkələr şuranın sammitini də xatırladıb və qeyd edib ki, sammit koronavirus pandemiyasına həsr olunub.

Nəşr onu da qeyd edir ki, mayın 4-də Prezident İlham Əliyevin təşəbbüsü ilə həm də sədri olduğu Qoşulmama hərəkatının videokonfransı keçiriləcək. Hərəkatın sammiti kontakt qrupu formatında "Bizim hər birimiz COVID-19-a qarşıyıq" mövzusunda baş tutacaq.

SİTAT: "Azərbaycan şübhəsiz ki, pandemiyanın iqtisadi subyektlərin fəaliyyətinə neqativ təsirlərinin qarşısının alınması üçün nümunə oldu. Bir çox öölkələr artıq Azərbaycanın təcrübəsindən istifadə edirlər. Belə ki, bu cür zəmanətli uğur təcrübəsinin əsasında ölkə rəhbərliyinin açılımı, iqtisadiyyatın şəffaflığı, ictimaiyyətin Prezident ətrafında sıx birliyi və konsolidasiyası, ortaq hədəflər naminə biznes-cəmiyyətin və hakimiyyətin anlaşması dayanır. Və burada "Biz birlikdə güclüyük!" şüarı hakimiyyətin və bütün ölkə vətəndaşların birliyini nümayiş etdirir. Bu, təhlükə qarşısında belə bir anlam yaradır ki, yalnız birgə güc vasitəsi ilə çətinliklərin öhdəsindən gəlmək mümkündür".

***Rövşən RƏSULOV***

---

## Bəhruz Quliyev: "Xalqımız yumşaldılma tədbirlərinə baxmayaraq, qaydalara ciddi riayət etməlidir"



Prezident İlham Əliyev keçirdiyi son müşavirələrdə bir daha qeyd etdi ki, Azərbaycan hökuməti üçün vətəndaşların sağlamlığı bütün məsələlərdən üstün və əsasdır. Karantin rejimi mayın 4-dək uzadılsa da, ötən gün Nazirlər Kabinetinin qərarı əsasında yumşalma göstərir ki, ölkəmizdə pandemiya tam nəzarətə götürülüb. Xalqımız yumşaldılma tədbirlərinə baxmayaraq, tətbiq olunan qaydalara ciddi riayət etməlidir. SİA-nın xəbərinə görə, bunu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. O bildirib ki, ötən gün qəbul edilən yumşalma tədbirləri nəticəsində aprelin 27-dən etibarən bəzi iş və xidmət sahələrinin fəaliyyətinə dair məhdudiyyətlər aradan qaldırılır: "Lakin atılan addımlar insanlarda arxayınlıq yaratmamalıdır. Ölkə başçısının da qeyd etdiyi kimi, əgər vəziyyət mənfi istiqamətə gedərsə, yenidən qərarların sərtləşdirilməsi mümkündür". Ekspert söyləyib ki, ölkədə koronavirus pandemiyasına qarşı mübarizə istiqamətində görülən genişmiqyaslı tədbirlərin əsas məğzini əhalinin sağlamlığının qayğısına qalmaq, qlobal pandemiyadan az itki ilə çıxmaq təşkil edir: "Məhz buna görə də, dövlətimiz hər zaman olduğu kimi, pandemiya dövründə də vətəndaşların sağlamlığı ilə yanaşı, rifah halının yaxşılaşdırılması, eləcə də ölkə iqtisadiyyatının sabitliyini təmin etmək üçün bütün imkanlardan istifadə edir". B.Quliyev qeyd edib ki, martın 31-dən Azərbaycanda tətbiq olunan ciddi karantin rejimi, aprelin 5-dən isə insanların çölə çıxmaması istiqamətində həyata keçirilən məhdudlaşdırıcı tədbirlər ölkəmizin qlobal pandemiyadan az itki ilə çıxmasında xüsusi əhəmiyyətli oldu: "Son günlərin statistikasında sağalanların sayının yoluxanlardan çox olması bunun əyani sübutudur. Bununla yanaşı, pandemiyanın lokallaşdırılması istiqamətində aparılan dezinfeksiya, insanların koronavirusdan qorunması istiqamətində həyata keçirilən məlumatlandırma işləri, eləcə də digər addımlar nəticəsində ölkəmizdə yoluxanların sayının azalması bir daha göstərdi ki, Azərbaycan koronavirusla mübarizədə düzgün yolu seçib". Ekspert vurğulayıb ki, burada səhiyyə, polis və digər qurumların fəaliyyətini də qeyd etmək lazımdır: "Hesab edirəm ki, xalqımız yumşaldılma tədbirlərinə baxmayaraq, yenə də ən yüksək xüsusiyyəti olan həmrəylik, birlik göstərməli, tətbiq olunan qaydalara ciddi riayət etməlidir. Əgər belə davam edərsə, dövətimiz və xalqımız tezliklə bu bəladan az itkilərlə, birdəfəlik qurtulacaq. Əsas odur ki, müxtəlif tədbirlər nəticəsində pandemiya tam nəzarətə götürülüb. Amma lazım gəldiyi təqdirdə karantin rejiminin uzadılması və ya sərtləşməsi də qaçılmazdır".

# Azәrbaycan dövlәti bәşәri problemin hәllindә örnәk olmaqdadır

***Azәrbaycan dövlәti dünyanı tәhdid edәn koronavirus pandemiyası ilә mübarizәdә üzü ağ çıxdı. Azәrbaycan prezidentinin uzaqgörәn siyasәti sayәsindә bütün lazımi vә önlәyici tәdbirlәr görülәrәk, ölkәmizin vәtәndaşını qorumaq şәrti ilә biz epidemiyanın inkubasiya vә kuliminasiya dövrünü artıq geridә qoymuşuq. Azәrbaycan bunu dünyaya vә özünә sübut edә bildi.***



*Rәvan Bağırov,*
*Resurs Analitik İnformasiya Mәrkәzinin ofis rәhbәri*

Epidemiya Çindәn dünyaya yayılmağa başladığı andan ölkә rәhbәrimizin çevik, müdrik vә önlәyici tәdbirlәri sayәsindә epidemiyanın ölkәmizdә yayılma riskini minimuma endirdi. Bu yorulmaz fәaliyyәt cәnab Prezidentin ölkә qarşısında mәsuliyyәtinin vә liderlik keyfiyyәtinin göstәricisidir. Sözsüz ki, bu qabaqlayıcı vә düşünülmüş tәdbirlәrin hәyata keçirilmәsinin müsbәt nәticәlәri göz önündәdir.

***Ancaq bizi düşündürür ki, dünya bu epidemiyanın yeni dalğası ilә üzlәşә bilәr, yoxsa yox? Yaxud da yaşadığımız qlobal dünyada vә әhatә olunduğumuz qonşu dövlәtlәrdә dә bu epidemiyadan belә rahat yan keçә bildilәrmi?***

Hal-hazırda Azәrbaycanda iqtisadiyyatın inkişafı yüksәk templә davam etmәsinә baxmayaraq bizim qonşu ölkәlәrimizin virus-epidemiyası ilә mübarizәsindә hәm iqtisadiyyatının sürәtlә aşağı düşmәsi, hәm dә virusun yayıla riski qarşısının alına bilmәmәsi sözsüz ki, bizim ölkә iqtisadiyyatına da gәlәcәkdә tәsir edәn amillәrdәndir. Pandemiya bitdikdәn sonra biz dünyadan tәcrid olunmuş şәkildә yaşaya bilmәrik. Bu yaranmış vәziyyәt bundan sonra qonşu ölkәlәrimizlә olan iqtisadi, ticarәt әlaqәlәrimizin yenidәn inkişafla davam etmәsinә ciddi tәsir edәcәk. Çünki qonşu ölkәlәrimizin epidemiya ilә mübarizәsini, hәmçinin virusun qarşısının alınmasında gördüyü zәif, gecikmiş vә düşünülmәmiş tәdbirlәri sezmәk heç dә çәtin deyil.

Güclü iqtisadiyyat dövriyyәsi olan, әrazisi vә әhalisi Azәrbaycandan daha çox olan qonşu ölkәlәrimizin koronavirus epidemiyası ilә mübarizәdә gördüyü tәdbirlәrә, bu tәdbirlәrin hәyata keçirilmәsinә dövlәt büdcәsindәn ayrılan vәsaitlәrә nәzәr salsaq görәrik ki, hәmin ölkәlәrin vәtәndaşlarına dәyәn maddi vә mәnәvi ziyanın ödәnilmәsinә yetmәmәsi, hәmçinin ayrılan vәsaitin xәrclәnmәsi pandemiya dövründә vәtәndaşın sağlamlığının tәhlükә qarşısında qalmamasına yönәlsә dә, bu bәşәri problemin hәllindә atılan addımların düşünülmәmiş qәbul edilәn qәrarlarının tәzahürüdür. Apardığımız araşdırmalar bu gerçәklәri göstәrir. Mәsәlәn, Çindәn sonra İranı ağuşuna alan yaxın qonşumuz olan İran İslam Respublikası tәrәfindәn virusa qarşı mübarizә üçün dövlәt büdcәsindәn ümumilikdә 321milyon dollar vәsait ayrılıb ki, bu da Azәrbaycan hökumәti tәrәfindәn düşünülmüş siyasәtlә ayrılan vәsaitlә müqayisәdә dәfәlәrlә azdır. Buradan aydın görünür ki, bu vәsaitlә virusun qarşısını alınması qeyri-mümkündür. Yeri gәlmişkәn onu da qeyd edәk ki, Azәrbaycan dövlәti tәrәfindәn humanitar әsaslarla İrana 5 milyon manat yardım edilib. Bu çәtin dönәmdә Prezidentimizin qonşu tәrәfdaş olduğumuz ölkәlәrә olan sәmimi diqqәtini vә liderlik keyfiyyәtini görmәk olar.

Bundan әlavә qonşu ölkәlәrimizdәn Türkiyә Respublikası tәrәfindәn koronavirusla mübarizәyә 158 milyon dollar, Rusiya hökümәti tәrәfindәn 4 milyard dollar, Gürcüstan dövlәti tәrәfindәn 1 milyon dollar vәsait ayrılıb ki, bu da pandemiya ilә mübarizә üçün az bir vәsait olduğundan qarşısıalınmaz bir vәziyyәtin göz önündә olmasıdır. Ermәnistan isә bu epidemiya ilә mübarizәsindә qonşu ölkәlәrdәn gәlәn yardımı vә Avropa İttifaqından ayrılan 92 milyon avronu gözlәyir. Nәticә olaraq görünür ki, yaxın tәrәfdaşımız olan İranın virusdan tam qurtulduğunu hәlә düşünmәk çәtindir. Әn yaxın müttәfiqimiz olan qardaş ölkә Türkiyәnin dә hәlә bu virusu yenmәsini demәk tez olar. Rusiya vә Gürcüstanda da virusun hәlә inkubasiya dövrü davam etdiyindәn yaxın günlәrdә müsbәt nәticә әldә olunmasına inanırıq. Ermәnistanda da virus-epidemiyasının yayılma riski hәr gün daha da sürәtlәnir.

***Azәrbaycan dövlәti son illәrdә vә pandemiya dövründә daha nәlәr etdi?***

Pandemiya dövründә dövlәt tәrәfindәn ölkәyә maddi ziyan verә bilәcәk bütün fәaliyyәt istiqamәtlәri nәzәrә alınaraq kiçik vә orta sahibkarlara, aztәminatlı vә imtiyazlı ailәlәrә, hәmçinin müvәqqәti işsiz qalanlara son illәrdә icra olunan sosial-iqtisadi islahatların davamı olaraq dövlәt büdcәsindәn 2 mәrhәlәyә bölünәrәk ümumilikdә 5 milyard manat vәsait ayrılaraq, hәmin vәsaitin insanlara, ölkәnin dәyәrli sәrvәti olan vәtәndaşına ödәnilmәsi hәyata keçirilmәkdәdir. Bununla yanaşı virus-epidemiyasının qarşısının alınmasında öncәdәn ölkәyә gәtirilәn müasir tәcili tibbi avadanlıq vә texnikaların, koronavirus xәstәlәrinin müalicәsi üçün yeni dünya standartlarına cavab verәn müasir xәstәxanaların tikilmәsi ilә bağlı qәbul edilmiş vacib qәrarlar dövlәtin administrativ resurslarından vaxtında vә düzgün istifadәsinin nәticәsidir.

Dünyanı ağuşuna alan virus epidemiyasından öz vәtәndaşlarını qorumaq üçün Azәrbaycan dövlәti bu istiqamәtdә tәdbirlәr proqramının hәyata keçirilmәsi üçün qonşu dövlәtlәrdәn fәrqlәnәrәk, müxtәlif sәrәncamlarla ümumilikdә 6 milyard 34 milyon 800 min manat dövlәt büdcәsindәn vәsait ayırmışdır ki, bu da 2018-ci ildәn cәnab Prezident tәrәfindәn qәbul edilmiş vә icrası davam edәn sosial siyasәtin ardı kimi qiymәtlәndirilir.

2018-ci ildә İlham Әliyev yenidәn Prezident seçilәndәn dәrhal sonra sosial paketin ilk tәzahürü Cәnab Prezidentin 2018-ci il aprelin 18-dә imzaladığı sәrәncamla başladı. Aztәminatlı vә imtiyazlı ailәlәrә, hәmçinin şәhid ailәlәrinә, qarabağ әlillәrinә vә mәcburi köçkünlәrә birdәfәlik ödәmәlәr hәyata keçirilmişdir.

Sosial paket elan edilәrkәn Prezident İlham Әliyev bu paketin davam edәcәyini vә artan iqtisadi resursların bir daha әhalinin maddi rifah halının yaxşılaşdırılmasına sәrf edilәcәyini bәyan etmişdi. 2019-cu ilin sürәtli iqtisadi artım ili olacağı da әvvәlcәdәn planlaşdırılmışdı. Dövlәt başçısının keçәn ilin 18 iyun tarixli sәrәncamları ilә ilin әvvәlindәn elan edilmiş sosial paketin yeni mәrhәlәsi başlandı vә yeni sәrәncamlar 2 milyon vәtәndaşı әhatә etmişdir. Bütövlükdә, prezident sәrәncamları ilә әmәk haqlarının artımı büdcәdәn әlavә olaraq 1 milyard manat vәsaitin ayrılmasına sәbәb oldu. Әmәk haqlarının artımı hәm dә ölkәdә iqtisadi aktivliyi artırdı. Ölkәdә minimum pensiyanın 72 faiz artırılması nәticәsindә 660 min pensiyaçımızın pensiyalarında ciddi şәkildә artım oldu vә minimum pensiyanın alıcılıq qabiliyyәti parametri üzrә Azәrbaycan MDB mәkanında birinci yerdә qәrarlaşdı. Әlavә olaraq әmәkhaqqı artımları ilә bağlı, xüsusi şәrtlәrlә pensiya alan 90 min pensiyaçımızın da pensiyaları orta hesabla 31 faiz artdı vә bu da ümumilikdә ötәnilki paketin 750 min insanı әhatә etmәsini tәmin etdi.

Prezident İlham Әliyevin 8 fevral 2019-cu il tarixli Sәrәncamı ilә sosial paketin davamı olaraq martın 1-dәn minimum әmәk haqqının 38,5 faiz (50 manat) artırılaraq 180 manata çatdırılmasına, muzdla çalışanların azı 40%-nin vә ya 600 mindәn çox işçinin әmәk haqlarının artmasına imkan verib. Prezident cәnab İlham Әliyevin xüsusi qayğısı hazırda 1,3 milyon nәfәrdәn ibarәt olan pensiyaçıları da әhatә edir. Yanvar vә fevral aylarında növbәti dәfә pensiyaların artımı ilә bağlı әlavә olaraq 15 milyon manat vәsait ayrılmışdır. Minimum pensiya mәblәğinin artırılması ümumilikdә 233 min pensiyaçını o cümlәdәn, 140 min nәfәr әlilliyә görә pensiya alan şәxsi әhatә edәrәk, onlardan 9 min nәfәrin pensiyasında 93 faiz, 26 min nәfәrin pensiyasında 30 faiz, 74 min nәfәrin pensiyasında 16 faiz artım özünü göstәrmişdir. Bu artımdan sonra alıcılıq qabiliyyәti indeksi üzrә ölkәmiz MDB mәkanında ilk iki yeri bölüşür. Azәrbaycanda minimum әmәk haqqı alıcılıq qabiliyyәti pariteti ilә götürülәndә Şәrq Tәrәfdaşlığı ölkәlәri arasında birinci yeri tutur. Azәrbaycanın Davos Forumunun hazırladığı "Qlobal Rәqabәtlilik hesabatı"na görә dünyada 144 ölkә arasında 39-cu, MDB mәkanında isә 1-ci yerә çıxmasını qeyd etmәk lazımdır.

2019-cu ilin әvvәlindә 40 min ailә bu sosial paket proqramından yararlanırdısa, ilin sonunda artıq ailәlәrin sayı 72 min oldu. Yәni, bir il әrzindә çox ciddi şәkildә, tәqribәn iki dәfә artım әldә edildi. Digәr tәrәfdәn, 2019-cu il üçün dövlәt büdcәsindәn ayrılmış vәsait çәrçivәsindә 85-90 min ailәnin ünvanlı sosial yardımla әhatә olunması planlaşdırılıb hәyata keçirildi. Bu da ünvanlı sosial yardım proqramının әlavә olaraq daha 20 faiz genişlәndirilmәsi demәkdir. Bununla bәrabәr, kriteriyaların yumşaldılması vә bu istiqamәtdә әhaliyә dәstәk verilmәsi barәdә torpaq pay mülkiyyәti ilә bağlı yüngüllәşmәlәr tәtbiq olundu, sırf o islahatın nәticәsindә әlavә 7 min ailә ünvanlı sosial yardım proqramına daxil ola bildi. Әgәr 2018-ci ildә ünvanlı sosial yardımın mәblәği 160 manat idisә, ötәn il 200 manata çatdı. Bu il üçün bu rәqәm 215-220 manat arasında olacaq. Demәli hәr ay ünvanlı sosial yardım alanlar bu qәdәr vәsaitlә tәmin olunacaqlar.

2019-cu ilin fevralında Prezident İlham Әliyevin imzaladığı fәrman vә sәrәncamlara әsasәn 3 milyona yaxın insanın sosial müdafiәsinin güclәndirilmәsi mәqsәdlәrinә 1,5 milyard manat ayrılmışdır.

Dövlәt başçısının "Minimum aylıq әmәk haqqının artırılması haqqında" sәrәncamına әsasәn ölkәdә minimum әmәkhaqqının mәblәği 2019-cu il sentyabrın 1-dәn 40 faizәdәk artırılaraq 180 manatdan 250 manata çatdırılmışdır. Bununla da ölkәmizdә minimum әmәkhaqqının mәblәğinin yaşayış minimumunu (180 manat) 40 faizәdәk üstәlәmәsi tәmin edilir. Bu da dövlәt büdcәsindәn maliyyәlәşdirilәn sahәlәrdә müәyyәn edilmiş әmәkhaqqının orta hesabla 40 faiz artırılmasına imkan verir. Ümumilikdә minimum әmәkhaqqının artımı birbaşa olaraq 950 minәdәk vәtәndaşı әhatә etmişdir. Ölkәdәki mütәrәqqi sosial siyasәti özündә növbәti dәfә bariz şәkildә ehtiva edәn keçәn ildә qәbul olunmuş son qәrarlar ümumilikdә 2 milyon insanı әhatә etmişdir.

***Pandemiya vә ondan әvvәlki dövrdә qonşu ölkәlәrdә hansı sosial siyasәt hәyata keçirilib?***

Qonşu ölkәlәrdә pandemiya vә ondan әvvәlki illәrdә ölkә әhalisinin aztәminatlı vә işsiz tәbәqәlәrinin sosial rifah halının yüksәldilmәsi istiqamәtindә görülәn işlәrlә bağlı apardığımız araşdırmalarda maraqlı faktları qeyd etmәk olar. Ümumilikdә son illәrdә Azәrbaycanda davam edәn sosial-iqtisadi islahatların, әhalinin ümumi rifah göstәricilәrinin yüksәk tutulmasında görülәn kompleks tәdbirlәrdәn fәrqli olaraq, qonşu ölkәlәrdә belә islahatların baş vermәsi hallarına rast gәlmәk çәtindir. Tәkcә pandemiya dövründә qonşu ölkәlәrimizdәn sadәcә Rusiya hökümәti cuzi olaraq ölkә vәtәndaşının aztәminatlı hissәsinә yardım etmәyi planlaşdırıb. Bundan başqa qonşu ölkәlәrdә nәinki pandemiyadan әvvәl, hәtta pandemiya dövründә belә ölkә vәtәndaşının aztәminatlı vә işsiz tәbәqәsinә dövlәt tәrәfindәn maddi rifah halının güclәndirilmәsi istiqamәtindә ciddi tәdbirlәr görülmәyib. Bu faktları MDB dövlәt statistika komitәsinin rәsmi statistik mәlumatlarında görmәk mümkündür.

Belәliklә, Azәrbaycan Respublikası tәrәfindәn son iki ildә aparılan sosial-iqtisadi islahatların, eyni zamanda Prezidentimizin ardıcıl apardığı daxili vә xarici siyasәtinin, әhalinin sosial rifahının yaxşılaşdırılmasında planlaşdırılan vә prioritet tәdbirlәrin hәyata keçirilmәsinin mәntiqi nәticәsi onu göstәrir ki, dövlәtin zaman-zaman sosial siyasәtindә apardığı yeniliklәr vә sosial rifahın coğrafiyasının genişlәnmәsi müasir dayanıqlı inkişafın adekvat tәzahürüdür. Bu inkişafdan vә aparılan siyasәtin düzgünlüyündәn Azәrbaycan vәtәndaşının dövlәtә inamı vә mәmnunluğu daha da әminliklә hiss olunmaqdadır.

## Ermәnistanda koronavirusa yoluxanların sayı 1 800 nәfәri keçdi




Ermәnistanda koronavirusa yoluxanların sayı 1 808 nәfәrә çatıb. SİA-nın ermәni KİV-lәrinә istinadәn mәlumatına görә, son sutka әrzindә 62 nәfәrdә infeksiyaya yoluxma faktı aşkarlanıb. Bundan başqa, sutka әrzindә 1 nәfәrin ölümü qeydә alınıb. Bu günәdәk Ermәnistanda 29 nәfәr koronavirusun qurbanı olub, 931 nәfәrin müalicәsi davam edir. Qeyd edәk ki, ölkәdә mayın 14-dәk fövqәladә vәziyyәt elan olunub.

# Birlik nümayiş etdirməklə bütün çətinliklərin öhdəsindən gəlirik!

*Pandemiya ilə bağlı vəziyyət idarəolunan səviyyəyə düşüb və görülən davamlı tədbirlər nəticəsində ölkə əhalisinin sağlamlığı təmin edilir*

***Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü ardıcıl işlər söz yox ki, xalqımız, vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir. Ümumiyyətlə, bu dövrdə verilən hər bir qərarın arxasında əhalinin sağlamlığının mühafizəsi, sosial təminatının qorunub-saxlanılması, xüsusilə də, sosial layihələrin davamlı şəkildə icra edilməsidir. Belə ki, ölkə rəhbərimizin hökumətin müvafiq struktur rəhbərlikləri ilə, nazirlərlə keçirdiyi onlayn müşavirələrdə irəli sürdüyü hər bir fikrin, vurğulanan tezisin təməlində bir faktor dayanır - dövlət və vətəndaş birliyinin möhkəmləndirilməsi, insanların sosial-rifah hallarının qorunması, inkişafı və mövcud vəziyyətdən az itki ilə çıxılması reallığı.***

## Xalqın minnətdarlıq məktubları: Prezident İlham Əliyevin siyasətinə göstərilən birmənalı dəstək!

Lakin o da əbəs deyil ki, artıq ölkəmizin müxtəlif bölgələrində yaşayan insanlarımız Prezident İlham Əliyev cənablarının apardığı siyasətə dəstək verdiklərini, Onun xalq üçün qətiyyətli addımlar atdığını qeyd edirlər. Bunu vətəndaşların dövlətimizin başçısına ünvanlandığı minnətdarlıq məktubları da təsdiq edir.

Lakin bizlər - dövlətimizə dəstək göstərən hər bir vətəndaş əldə edilən uğurlardan rahatlanmamalıdır. Çünki koronavirus pandemiyası dünyanı sarsıtmaqda davam edir və Azərbaycanın COVID-19-la mübarizədə örnək göstərilməsi məhz məsuliyyət hissi ilə qorunub-saxlanılmalıdır. Yəni dövlətin vətəndaşa qayğısına həmrəy şəkildə dəstək göstərilməlidir. Sirr deyil ki, dünyada COVID-19 infeksiyasına yoluxanların sayı artıq 2 milyon yarımı keçib. Bu baxımdan da qeyd etmək vacibdir ki, cənab Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə koronavirus pandemiyasının ölkəmizin ərazisində yarada biləcəyi təhlükənin qarşısını almaq məqsədilə dövlət tərəfindən ardıcıl tədbirlər görülməkdə davam edir.

## Ardıcıl islahatlar olmasa idi, ölkəmiz də digər ölkələr kimi pandemiya dövründən ağır nəticələrlə çıxa bilərdi

Artıq yuxarıda qeyd edilənlərlə yanaşı, dövlətin məlum təhlükə ilə bağlı qəbul etdiyi ciddi və təxirəsalınmaz qərarlar öz bəhrəsini verir, hər birimiz bunun şahidiyik. Pandemiya ilə bağlı vəziyyət idarəolunan səviyyəyə düşüb və görülən davamlı tədbirlər nəticəsində ölkə əhalisinin sağlamlığı təmin edilir.

Onu da qeyd etmək yerinə düşərdi ki, artıq bir neçə ildir aparılan ardıcıl islahatlar olmasa idi, ölkəmiz də digər ölkələr kimi pandemiya dövründən ağır nəticələrlə çıxa bilərdi. Belə ki, 2018-ci ildə keçirilən prezident seçkilərindən sonra reallaşdırılan islahatlar kursu da məhz pandemiya dövründə hökumətin mobil və uğurlu fəaliyyətini bir daha göstərdi.



***Məşhur MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***

Nəticədə ölkəmiz üçün çətin dövrdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Vətəni və vətəndaşını sevən qayğıkeş insan olduqlarını nümayiş etdirdilər. Onların bu çətin günlərdə xalqa müraciəti əhali tərəfindən yüksək qiymətləndirilir. Bu müraciətlər ölkə vətəndaşlarının dövlətə və ölkə başçısına inanmaqda haqlı olduqlarını təsdiqləməklə yanaşı, onları məsuliyyətli davranmağa səslədi, pandemiya dövründə ölkə əhalisini daha da sıx birləşdirdi.

## Sosial addımlar dövlətin vətəndaşına dəstəyini göstəriciləridir

Azərbaycan Prezidenti pandemiya dövründə vətəndaşların sağlamlığının qorunması məsələsinin dövlətimiz üçün xüsusi önəm daşıdığını bir daha nümayiş etdirdi. Dövlət resurslarının, ilk növbədə, məhz vətəndaşların sosial müdafiəsinə yönəldilməsi də ölkə əhalisi tərəfindən yüksək qiymətləndirilir. Günəmuzd çalışan şəxslərin pandemiya dövründə işlərini müvəqqəti itirməsi səbəbindən onların işsiz kimi qeydə alınaraq yarımların edilməsi, vaxtı bitmiş ünvanlı sosial yardım alan şəxslər üçün bu yarımın pandemiya dövründə davam etdirilməsi və bu ailələrin sayının artırılması, yaşı 65-dən yuxarı şəxslərə sosial xidmətlərin göstərilməsi, ödənişli ictimai işlərə cəlb olunanların sayının dəfələrlə artırılması, aztəminatlı ailələrin övladlarının təhsil haqqının dövlət hesabına ödənilməsi, 600 mindən çox vətəndaşa birdəfəlik 190 AZN maddi yardımın göstərilməsi barədə verilən qərar və onlarla digər belə sosial addımlar dövlətin vətəndaşına dəstəyini göstəriciləridir. Dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində ölkəmizin pandemiyadan sonrakı iqtisadi inkişafı nəzərə alınaraq sahibkarlıq subyektlərinə də dövlət dəstəyi göstərilir.

O cümlədən, yaşları 65-dən yuxarı olan məhbusların da əfvə salınaraq ailələrinə geri dönmələri insanlıq və humanizm dəyərlərinə göstərilən xüsusi diqqət və qayğıdır. Çünki onların ailələri təlaş və narahatlıq keçirirdilər və Prezident İlham Əliyev cənabları bu narahatlığa da son qoydu, çətin dövrdə ailələrə sevinc bəxş etdi.

## Prezident İlham Əliyevin apardığı siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır!

Beləliklə, həm də belə bir nəticəyə gəlmək mümkündür ki, dünyada cərəyan edən bu ağır günlərdə Azərbaycan dövləti bir daha hansı aliliklərə qadir olduğunu əməli işləri ilə isbatladı. Dünya, beynəlxalq aləm bir daha şahid oldu ki, Prezident İlham Əliyevin apardığı siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır!

## Dövlətimizin başçısının atdığı bütün addımlar, apardığı uğurlu siyasət ölkə vətəndaşları tərəfindən dəstəklənir və alqışlanır.

Mən də bir millət vəkili olaraq fəxr edirəm ki, bu siyasətin aparıldığı ölkənin parlamentində tövsiyə edilən proqram və layihələrin həyata keçirilməsində, qanunverici orqanın işində iştirak edirəm. Bu baxımdan, əminliklə deyə bilərəm ki, parlamentimiz də dövlətimizin qorunması və inkişafı sahəsində görülən və görüləcək bütün işlərə dəstəyini ifadə edərək, Azərbaycan Prezidentinin qərarlarını dəstəkləyir, tövsiyələrinin həyata keçirilməsi üçün dinamik fəaliyyətini davam etdirir. Bu uğurların davamlı reallaşdırılması üçün isə, biz birlik, həmrəylik nümayiş etdirməklə bütün çətinliklərin öhdəsindən gələcəyik!

# DTX və Baş Prokurorluq əməliyyat-axtarış tədbirləri keçirib, İsmayıllı şəhəri üzrə icra nümayəndəsi tutulub

***Koronavirus (COVID-19) infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması və onun mənfi təsirlərinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı kompleks siyasi, iqtisadi və sosial tədbirlər həyata keçirilir. Dövlətin bu sahədə apardığı işlərə kölgə sala biləcək qanunsuz hərəkətlərə qarşı da ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.***




Belə ki, İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə icra nümayəndəsi Məhərrəm Əhmədovun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan məlumatına görə, aparılmış tədbirlərlə Məhərrəm Əhmədov tərəfindən qanunsuz ödənişlər müqabilində “Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında” Nazirlər Kabinetinin 2 aprel 2020-ci il tarixli 124 nömrəli Qərarına zidd olaraq rayon ərazisində hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə, eləcə də müvafiq kateqoriyalara aidiyyəti olmayan digər fiziki şəxslərə işləmələri barədə icazə.e-gov.az portalında qeydiyyatdan keçməyən arayışların verilməsi, habelə aztəminatlı ailələr üçün dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarının mənimsənilməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binasına və Məhərrəm Əhmədovun rayonun Mican kəndində yerləşən yaşadığı evə baxış keçirilərək müxtəlif fiziki şəxslərə məxsus plastik bank kartları aşkar edilib və müəyyənləşdirilib ki, sonuncu öz yaxın qohumlarının adlarına formal olaraq rəsmiləşdirməklə müxtəlif sayda plastik bank kartlarının alınmasına nail olub, bu yolla ümumilikdə 2016-2020-ci illər ərzində 12.400 manat məbləğində vəsaiti qanunsuz olaraq mənimsəyib. Bununla yanaşı, baxış zamanı nağd pul, ayrı-ayrı şəxslərin adlarına guya işləmələri barədə verilmiş qanunsuz arayışlar və onlara dair qeydlər, habelə aztəminatlı ailələrə yardım məqsədilə nəzərdə tutulmuş ərzaq bağlamaları və digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülüb.

İstintaq zamanı toplanmış ilkin sübutlar əsasında fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb, M.Əhmədov şübhəli şəxs qismində tutulub.

Həzırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların, o cümlədən Nazirlər Kabinetinin müvafiq qərarına zidd olaraq fiziki şəxslərə işləmələri barədə icazə.e-gov.az portalında qeydiyyatdan keçməyən arayışların verilməsi və aztəminatlı ailələr üçün dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarının mənimsənilməsi faktları hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları vətəndaşların dairəsinin tam müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı “Qaynar xətt” əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

# Həcc ziyarətinə sənəd qəbulu ləğv edilməyib

Azərbaycandan Həcc ziyarətinə getmək üçün sənəd qəbulu karantin rejiminin tətbiq edilməsi səbəbindən müvəqqəti dayandırılsa da ləğv edilməyib. Bu barədə SİA-ya Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib. Qeyd olunub ki, koronavirus təhlükəsinə görə Həcc ziyarətinin dayandırılması ilə bağlı hələ ki, Səudiyyə Ərəbistanı tərəfindən hər hansı bir bildiriş gəlməyib. Bildirilib ki, Azərbaycanda karantin rejimi tətbiq olunana qədər 250-dən çox insan Həcc ziyarətinə getmək üçün müraciət edib. Hazırda isə karantin rejimi tətbiq olunduğuna və eyni zamanda rayonlardan Bakıya gəlişin məhdudlaşdırılmasına görə müraciət edənlər yoxdur. Vurğulanıb ki, indidən Həcc ziyarətlərinin təxirə salınıb-salınmayacağı barədə bir söz demək çətindir. Proseslərin gedişinə uyğun qərar qəbul olunacaq.

Qeyd edək ki, ziyarətin qiyməti 4 490 dollar olacaq. Ötən il isə bu məbləğ 4 285 dollar təşkil edib. Bu, otel xidmətlərində olan qiymət artımı və viza rüsumunun tətbiq edilməsi ilə bağlıdır. Həcc ziyarətinə sənəd qəbuluna yanvarın 27-də başlanıb.

# Ölkəmizdə siyasi qüvvələrin özünü ifadə etməsi, potensialını göstərməsi üçün yetərincə şərait var

*Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin deputatı Elşən Musayevin yap.org.az-a müsahibəsi*



***- Elşən müəllim, bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Sədrliyi ilə 2020-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunan videkonfrans şəklində keçirilən müşavirədə dövlətimizin başçısı ölkəmizdə aparılan siyasi islahatların əhəmiyyətini vurğuladı. Eyni zamanda, siyasi dialoq mühitini müsbət qiymətləndirərək bildirdi ki, siyasi dialoq ölkəmizə böyük fayda gətirəcək. Bununla bağlı fikirlərinizi bilmək istərdik...***

- Cənab Prezident İlham Əliyev islahata və dialoqa meylli olduğunu hər zaman, hər dönəmdə əyani sübutlarla göstərib və nümayiş etdirib. İndi də həmin prioritet ön plandadır. Bütün siyasi partiyaların və ümumilikdə siyasi qüvvələrin özünü ifadə etməsi, gücünü, potensialını göstərməsi üçün yetərincə şərait var və bizlər də həmin şəraitdən maksimum bəhrələnirik.

Son zamanlar məlum dinamikanın müsbət xətt üzərindən daha da irəliləməsi isə xüsusi, əlahiddə, təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Bildiyiniz kimi, fevral ayından etibarən, çox qısa müddət ərzində bütün siyasi partiya rəhbərləri ilə fərdi görüşlər keçirilib, onların fikirləri, təklifləri dinlənilib, üstəlik həmin təkliflərə dərhal reaksiyalar verilib. Düşünürəm, bu görüşlərin, məsləhətləşmələrin davamı da olmalıdır və əminəm ki, mütləq olacaq. Çünki dialoq zəminində qəbul olunan qərarlar, fikir müxtəlifliyi fonunda yetişən, ərsəyə gələn, formalaşan nəticə hər zaman effektli olur. Məlum xətt və prinsip demokratik dəyərlərin, demokratiya güzgüsünün ən parlaq təzahürüdür, tərənnümüdür. Faydasını da bütün mərhələlərdə görəcəyik.

***- Dövlət başçısı çıxışında, həmçinin parlamentin və onun komitələrinin rəhbərliyində müxalifət partiyalarının nümayəndələrinin təmsilçiliyini siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addım kimi dəyərləndirib. Sizcə, bu amilin əhəmiyyəti nədən ibarətdir?***

- Mən bu nümunəyə və icraata məhz öz timsalımda cavab verə bilərəm: Gözləmədiyim halda komitə sədrinin müavini seçildiyimi parlament tribunasından eşitdim. Sonradan bildim ki, digər siyasi partiyaları təmsil edən həmkarlarım da qərardan xəbərsiz olublar. Çünki əvvəl belə ənənə yox idi. Etiraf etmək lazımdır bunu. Səbəb də çox sadədir. Yeni Azərbaycan Partiyası Milli Məclisdə ən güclü, dominant qüvvədir. Bizlər isə say hesabı ilə azlıqdayıq. Belə olan halda yalnız siyasi iradə lazımdır, olmalıdır ki, rəhbər təmsilçiliklə bağlı digər partiyalara güzəştə gedilsin. Və bu iradə nümayiş olundu.

Beləcə, yeni bir mərhələ başlandı, yeni siyasi konfiqurasiyanın formalaşması üçün zəmin yarandı. Alqışlamaq lazımdır həmin iradəni və təşəbbüsü. Üstəlik, yəqin sizlərin də məlumudur ki, Azərbaycan Parlamentinin tarixində ilk dəfə müxalif partiyanın nümayəndəsi sədr müavini vəzifəsinə qədər yüksəldi. Ələrəz, yenilik - yenilik ardınca gəldi. Heç zaman görmədiyimiz mənzərəni seyr etdik. Bu həqiqətən yeni bir siyasi dövrün başlandığına dəlalət edir. Bu hadisələr yeni bir siyasi dönəmin işartısıdır.

***- Məlumdur ki, siyasi dialoqdan imtina edənlər də var. Hansı ki, onlar vaxtilə hakimiyyətdə olduqları dövrdə respublikamızı dərin böhrana və xaosa sürükləmişdilər. Bu barədə nə deyə bilərsiniz?***

- Dialoqdan imtina edənlər hər zaman cığal, qaragüruh, nimdaş fəaliyyətləri ilə özlərini tanıdanlardır. Onlar sivil qaydaların, demokratik prinsiplərin, mədəni proseslərin və ümumiyyətlə dövlətçiliyin, vətənin, millətin nə olduğunu anlamayan tiplərdir. Beləlıri elə dialoqa gəlməsələr daha yaxşı. Çünki adları siyasətçidir, özləri yox. Mahiyyətləri də yalnız dağıdıcılıq, yırtıcılıq və radikallıqdır. Hərdəmxəyallıqları da göz önündə. Ancaq nifrinlər püskürməklə, şəxsi maraqlarını təmin etmək yönündə çaba göstərməklə, hansısa beynəlxalq təşkilata, qrupa yedəklik, nökərlik eləməklə, bunun müqabilində də bol-bol qrantlar almaqla, qazanmaqla məşğuldurlar. Onlar bizdən deyil. Onlar düşməndir. Onlar anti-milli ünsürlərdir. Onların istəkləri və arzuları yalnız yırtıcı təfəkkürə köklənib, fokslanıb. Bu səbəbdən də təklif olunan dialoq maraq dairələrində deyil. Onlar beyinlərindən gələn instinktlərlə deyil, xaricdən verilən təlimatlarla işləyirlər. Ordan desələr ki, dialoqa gedin, gedəcəklər. Deməsələr yox.

Siyasi qüvvənin gərək öz ağlı, öz əzmi, öz iradəsi, öz qərar qəbul etmə lüksu olsun ki, ona uyğun da hərəkət eləsin. Bunlarda isə sadaladığım komponentlərin heç biri yoxdur. Onlar tarixin zibilliyinə gömülmüş məxluqatlardır.

***- Radikal müxalifət, "beşinci kolon" koronavirus pandemiyasından da öz məqsədləri üçün istifadə etməyə çalışır. Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi fonunda onların bu cür davranışını necə qiymətləndirirsiniz?***

- Azərbaycanın koronavirusla, ümumbəşəri bəla ilə mübarizə üsulu bu gün az qala bütün dünya üçün "yol xəritəsidir". Ölkədən kənarda da hər kəs bizi təqdir edir, hamı görülən müsbət işləri qiymətləndirir, Azərbaycanın düzgün yol seçdiyini xüsusi eyhamla bildirir. Bircə radikal müxalifət və "5-ci kolon" adlandırdığımız qüvvələr reallığı və atılan mütərəqqi addımları görməkdə çətinlik çəkirlər, bütün müsbət gedişatları görməzdən keçirlər. Niyə? Çünki hətta koronavirusa da öz maraqları kontekstindən baxırlar. Tək arzuları, istəkləri budur ki, vəziyyət kəskinləşsin, ölüm sayı çoxalsın, əhalinin iqtisadi vəziyyəti pisləşsin və məlum durumdan da bacara bildikləri qədər istifadə eləsinlər.

Azərbaycan hakimiyyəti isə belə bir şansı həmin nadürüstlərə tanımır, onların arzusunu gözlərində qoyur. Hər zaman olduğu kimi. Radikal məxluqlar, anti-Azərbaycan qüvvələri hələ də fərqində deyillər ki, xalq və rəhbərin birliyi, həmrəyliyi olan yerdə nəinki koronavirus, onun yüz qatı belə bizləri məğlub edə, sarsıda, yıxa bilməz. Həmin xəyalpərəstlər, "Milli şura"nın qaraçı ideoloqları bax bu dediyimin fərqinə vardıqları gün öz siyasi fiaskolarını görəcəklər və anlayacaqlar. Gecindən də olsa.

## Sosial müavinətləri istənilən bankomatdan rüsum tutulmadan çıxarmaq mümkün olacaq



Karantin rejimi mayın 4-də bitsə belə, pensiya, müavinət, sosial yardım, təqaüd alanlar bu vəsaitlərini may ayında da istənilən bankomatdan rüsum tutulmadan çıxara biləcəklər. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov deyib.

O deyib ki, ünvanlı dövlət yardımların ödənişi aprelin 28-də keçiriləcək. Məqsəd cari ay ərzində müraciət etmiş bütün ailələrin bu ay ərzində sosial yardımları almasına kömək etməkdir: "Vətəndaşları bankomatlar qarşısında sıxlıqdan qorumaq məqsədilə istənilən bankomatdan pensiya, müavinət, sosial yardım, təqaüdü heç bir rüsum tutulmadan almaq üçün şərait yaradılıb. Bu halda onlar bütün vəsaitlərini tam şəkildə alacaqlar. Bununla bağlı razılıq xüsusi karantin rejiminin tətbiq edildiyi müddətə aiddir. Karantin rejimi mayın 4-də bitsə belə, bu, may ayında da qüvvədə olacaq. Bununla biz yenə də vətəndaşlarımızı virusa yoluxmadan qoruyuruq".

## 5 ölkədən koronavirusla bağlı ŞAD XƏBƏR: İyul ayında bu yerlərə səyahət mümkün olacaq



Yeni tip koronavirus pandemiyasının sürətinin azaldığı bəzi Avropa ölkələri qabaqlayıcı tədbirləri yumşaltmağa davam edir. Avstriyada gələn həftədən ümumtəhsil məktəbləri açılacaq. Bu çərçivədə valideynləri işləyən şagirdlərin məktəbə getməsinə üstünlük veriləcək. Gələn il məktəbə getməli olan uşaqların hazırlığı da davam edəcək. Digər uşaqların isə həftədə 2-3 dəfə dərsə getməyi mümkün olacaq. Çexiyada 2,5 min km/m sahəsi olan iş yerləri və idman salonları qətiyyətli gigiyenik qaydalar çərçivəsində açılıb. İyul ayından etibarən Avstriya və Slovakiyaya səyahətlər mümkün olacaq. Almaniyada Çindən gətirilən 10 milyon maska əhaliyə paylanacaq və mağazalarda, kütləvi nəqliyyat sistemlərində qoruyucu maskaların taxılması məcburi olacaq.

Xorvatiyada qabaqlayıcı tədbirlər 3 mərhələdə yumşaldılacaq. Bu gün etibarilə mağazalar açılıb. Ticarət mərkəzləri isə bağlı qalıb. Avtobuslar sərnişin daşınmasına start verib. Serbiyada qapalı bazarlar, gözəllik salonları və idman mərkəzləri istifadəyə verilib. Monteneqroda son 24 saat ərzində yoluxma qeydə alınmayıb./publika.az

## "Siyasi dialoqun genişlənməsi yeni siyasi mühitin yaranmasının göstəricisidir"



"Ölkəmizdə geniş islahatlar aparılır. Bu islahatlar iqtisadiyyatın və dövlət idarəetmə sisteminin hər bir sferasını əhatə edir". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Azər Badamov sözlərinə görə, parlament seçkilərinin keçirilməsi, yeni seçilən parlamentin rəhbərliyinə bitərəf və müxalifət deputatların gəlməsi də islahatların tərkib hissəsidir: "İqtidarın müxalif partiyaların rəhbərləri ilə siyasi dialoqa üstünlük verməsi, iki yeni siyasi partiyanın qeydiyyatdan keçməsi də ölkədə islahatların alternativinin olmadığının göstəricisidir. Cənab prezidentin qeyd etdiyi kimi bizə konstruktiv müxalifət lazımdır. Ola bilər ki, bizim işimizdə də müəyyən nöqsanlar var. Əgər müxalifət konstruktiv münasibət göstərərək bizim nöqsanlarımızı dilə gətirərsə təbii ki, ölkəmiz daha sürətlə inkişaf edər, dövlət müstəqilliyimiz daha da möhkəmlənər. "REAL" partiyasının sədri İlqar Məmmədovun apelyasiya şikayətinə Ali Məhkəmənin bəraətverici qərar verməsi və siyasi dialoqun genişlənməsi, ölkəmizdə yeni bir siyasi mühitin yaranmasının göstəricisidir. Çox düzgün qeyd edirsiniz ki, Cənab Prezident hər bir vətəndaşın prezidentidir. Ehtiyacı olan insanlar üçün onların siyasi baxışlarından asılı olmayaraq yanında olur, müalicəsini öz üzərinə götürür, maddi və mənəvi dəstək göstərir. Bu, Prezident İlham Əliyevin radikallardan ən böyük üstünlüyüdür. Hansı siyasi partiyalar ki, dövlət müstəqilliyinin möhkəmlənməsinə, ölkəmizin inkişafına töhfə vermək istəyir, onlar siyasi dialoqa qoşulublar və öz təkliflərini bildirirlər. Hansılar ki, radikal siyasi düşərgədədirlər, xaricdən idarə olunurlar, "5-ci kolona" xidmət edirlər, onlar xalqa və dövlətə düşmənçilik mövqeyindən əl çəkmirlər. Bunlar müəyyən maliyyələr hesabına sosial şəbəkələrdə söyüş və təhqir kampaniyasına qoşularaq öz mədəniyyətsizliklərini nümayiş etdirərək xarici havadarların sifarişlərini icra edirlər. Onlar onsuz da bilirlər ki, nail olacaqları bir şey olmayacaq, necə ki, 28 ildir ki, ancaq öz burnundan uzağı görmürlər və yerində sayırlar. Artıq cəmiyyətin də onlara qarşı münasibəti kəskindir. Hamı bilir ki, kim kimdir. Bu gün ki, iqtidar böyük iqtisadi və sosial layihələri icra edərək ölkəmizin inkişafına , əhalinin sosial rifahının yaxşılaşmasına, müstəqilliyimizin əbədi olmasına var gücü ilə çalışır. Radikallar isə bunun əksinə . xalq bunu görür və çox yaxşı dəyərləndirir".

*Gülyana*

# “Əli Kərimlini aparılan iqtisadi, siyasi və ideoloji islahatlar qorxudur”

*Azərbaycan Kommunist Partiyasının sədri Hacı Hacıyevin SİA-ya verdiyi müsahibəni təqdim edirik:*

***- Hacı müəllim, koronavirus pandemiyasının respublikamızda yayılmasının qarşısının alınması istiqamətində görülən tədbirləri necə qiymətləndirirsiniz?***

- Dünyanın ən inkişaf etmiş dövlətləri koronavirus epidemiyasının yayılmasının qarşısını ala bilmir və çox ciddi ziyanlar görməkdədirlər. Azərbaycan isə bu pandemiyadan ən az zərər görən dövlətlər sırasındadır. Ölkə başçısı Cənab İlham Əliyevin düzgün və məqsədyönlü siyasəti nəticəsində pandemiyanın Azərbaycanda geniş yayılmasının qarşısı alındı. Bu baxımdan görülən tədbirləri və imzalanan Prezident sərəncamlarını yüksək qiymətləndirirəm. 2020-ci ilin fevral ayından hazırlıq işlərinin təşkili öz müsbət nəticəsini verdi. Mart ayının axırlarında isə sərt karantin tədbirləri tətbiq olundu. Onun nəticəsi olaraq hal-hazırda mərhələli şəkildə karantin tədbirlərinin yumşaldılmasına respublikanın iş ahənginin bərpa olunmasına başlanılıb. Aparılan tədbirlərin mütəşəkkilliyini bəyənirəm.

***- İşsizlərə birdəfəlik ödəmələrin edilməsi, iri və xırda sahibkarlara yardımların göstərilməsi dövlətin hər bir vətəndaşının yanında olduğunun sübutu sayıla bilər?***

- İri və xırda sahibkarlar bundan sonra işəgötürənlər kimi, işçilərlə müqavilə bağlamalarına dair “Əmək Məcəlləsinə” əməl etmələri, vergi orqanlara ciddi tapşırılmasını vacib sayıram. Bu işdə Respublika Həmkarlar İttifaqlarının da fəallığına ehtiyac var.

***- Siyasi partiyalar arasında canlı dialoqun qurulması üçün iqtidarın xoşməramlı addımlarına AXCP və Müsavatın müsbət cavab verməlrini nə ilə əlaqələndirə bilərsiniz?***

- Onların davası Prezidentin islahat aparmasına müəyyən əngəllər törətməkdir. İndiki şəraitdə, torpaqlarımızın işğal altında olması ölkəmizdə bütün siyasi partiyaların birliyini tələb edir. Hər



bir partiya bu işdə öz məsuliyyətini dərk edərək, ümumi işə yardımçı olmalıdır. Dünyada tüğyan edən dərin iqtisadi böhran respublikamızın milli maraqlarına təhlükədir, daxili siyasi qüvvələrin də birliyinə böyük ehtiyac var.

***- Hacı müəllim, dövlət ağır durumda olan “Azadlıq” partiyasının sədri Əhməd Oruca və ailəsinə maddimənəvi dəstək göstərdi. Bunu siyasi baxışlarından asılı olmayaraq dövlətin hər bir vətəndaşına göstərilən diqqət və qayğısı kimi qiymətləndirmək olar?***

- Azərbaycanın siyasi hakimiyyətinə müxalifətdə olan “Azadlıq” Partiyasının sədri Əhməd Orucun səhhətindəkiproblemlərlə əlaqədar xəstəxanada olmasından xəbər tutan ölkə Prezidenti Cənab İlham Əliyev ona xeyirxahlığını göstərmişdir. İndiki zamanda dünyada tüğyan edən iqtisadi böhran fonunda koronavirusdan respublika əhalisini qorumaq üçün aparılan tədbirlər öz müsbət nəticələrini verir. Belə ağır vəziyyətdə ölkə Prezidentinin eyni zamanda cəmiyyətdə insaniyyət və xeyirxahlıq islahatlarının da aparması təqdirəlayiqdir. Prezidentin müxalifət nümayəndəsinə göstərdiyi qayğıkeşliyi, həssaslığı, diqqətliliyi, onun ailəsinin dərdinə şərikliyi humanistlikdir. Azərbaycan Kommunist Partiyası müxalifət partiyasının sədrinə göstərdiyi mənəvi hörmətə görə ölkə Prezidenti İlham Əliyevə öz təşəkkürünü bildirir. İnanırıq ki, Əhməd Oruc ona göstərilən mehribançılıqdan və səmimiyyətdən ruhlanıb tezliklə sağalacaq və siyasi fəaliyyətini davam etdirəcək.

***- “REAL” partiyasının sədri İlqar Məmmədovun və həmin partiyanın idarə heyətinin üzvü Rauf Cəfərovun apelyasiya şikayətlərinə Ali Məhkəmənin bəraətverici qərar verməsi və onlara təzminat ödənilməsi barədə qərar çıxarması qanunçuluğun təmin olunmasında atılan humanist addım kimi qiymətləndirmək olar?***

- Ali Məhkəmənin plenumunda “REAL” partiyasının sədri İlqar Məmmədovun və partiyanın idarə heyətinin üzvü Rəsul Cəfərovun cinayət işlərinə bəraətverici əsaslarla xitam verilməsi insan üçün ən qiymətli, ən dəyərli nemət hesab olunan siyasi azadlıq, mətbuat azadlığı və söz azadlığına verilən qiymətdir. “REAL” partiyasının sədri ilə şəxsi tanışlığım yoxdur, lakin siyasi partiyalardan birinin üzvləri olduqlarını nəzərə alaraq, dövlətimizin müstəqilliyi və ərazi bütövlüyü, işğal altında olan torpaqlarımızın azad olunması uğrunda mübarizədə ümumi maraqları müdafiə cəbhəsində olacaqlarına inanıram.

***- ABŞ-dan və Avropadan yayımlanan internet TV-lərdə Azərbaycanın milli və dövlətçilik maraqlarını təhqir edən, şər və böhtanlar səsləndirən Əli Kərimli və tərəfdarları bununla siyasi etik qaydaları kobud şəkildə pozuqlarını demək olar?***

- AXCP sədri Əli Kərimli və tərəfdarları siyasi dialoqa hazır deyillər. Əli Kərimlini aparılan iqtisadi, siyasi və ideoloji islahatlar qorxudur. Çünki o və tərəfdarları islahatların çox gizli məqamlara, xəyanətlərə aydınlıq gətirəcəyini anlayırlar.

**İ.ƏLİYEV**

# “Ermənistan müharibə təhlükəsinin yaranması üçün əlindən gələni edir”

***“Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Rusiyanın təşəbbüsü öz üzərinə götürdüyü hiss olunur. Lakin onun Ermənistana ciddi basqısı görünmür. Ermənistan tərəfi isə danışıqlar xətrinə danışıqlara qoşularaq vaxt udmağa, ictimai rəydə isə guya danışıqların tərəfdarı olduğunu göstərməyə çalışır”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.***



Ermənistan tərəfinin qeyri-konstruktiv addımlarla danışıqların baş tutmasına imkan vermədiyini deyən politoloq söyləyib ki, xüsusilə də işğalçı ölkənin baş naziri Nikol Paşinyan, eləcə XİN başçısı Zöhrab Mnatsakanyan ciddi pozuculuq işləri ilə məşğuldurlar: “Onların həyasızcasına “bir qarış belə torpaqlar geri qaytarılmacaq” iddiaları bölgədə müharibə təhlükəsinin yaranmasına açıq şəkildə çağırış olmaqla yanaşı, işğalçının hərbi əhval-ruhiyyədə olduğunu göstərir”.

Q. Hüseynli deyib ki, Ermənistan öz addımları ilə Azərbaycanı təxribata çəkməyə çalışır: “ Danışıqlardan imtina edən Ermənistan ölkəmizi təxribata çəkməklə özlərinə aid fikri Azərbaycanın ayağına yazmaq istəyir. Zənnimcə Rusiya, eləcə də digər ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Ermənistana təzyiq etməli, onların sülh danışıqları prosesinə ciddi şəkildə qoşulmasını tələb etməli, əks halda işğalçıya qarşı sanksiyalar tətbiq olunmalıdır. İşğala, təcavüzə məruz qalan tərəf Azərbaycan olsa da, nədənsə dünya bu faciələri törədənlərə qarşı həlim davranmaqda davam edir. Bu baxımdan fikrimcə, Ermənistan təkcə qınanmamalı, sülhə dəvət edilməməli, onlara qarşı ciddi basqı rejiminin formalaşdırılmasına nail olunmalıdır”.

Son dövrlər cəbhə xəttində vəziyyətin kifayət qədər gərgin olduğunu deyən politoloq qeyd edib ki, gərginliyi yaradan tərəf ermənilərdir: “Hesab edirəm ki, Azərbaycan gərginliklə bağlı bəyanatla çıxış etməlidir. Bəyanatda açıq şəkildə Ermənistanın sülh danışıqlar təcrübəsindən imtina etmək istəyi bildirilməlidir. Çünki Paşinyan özü də etiraf edib ki, biz təzədən başlamaq istəyirik və separatçı qurum danışıqlar prosesində iştirak etməlidir. Bu baxımdan Azərbaycan təkidlə BMT, eləcə ATƏT-in özünə müraciət edərək, Ermənistanın işğalçı tərəf olduğunu bir daha bəyan etməlidir. Azərbaycan Ermənistanın əvvəlki rəhbərləri dövründə danışıqlarla bağlı razılığa gəlsə də, yeni hakimiyyət prosesin gərginləşməsinə dair addımlar atır, bölgədə sülhün pozulması və müharibə təhlükəsinin yaranması üçün əlindən gələni edir. Dünya xalqları, beynəlxalq təşkilatları bu prosesə daha fəal müdaxilə etməli, münaqişədə kimin günahkar və ya günahsız olduğunu müəyyənləşdirməlidir. Əks halda, bölgə yenidən qana bulaşa bilər”.

***Nailə Məhərrəmova***

# Növbəti epidemiya başlamazdan əvvəl dayandırıla bilərmi?

***Epidemiyalar insan həyatı üçün ən böyük təhlükələrdən biridir. Virus epidemiyasının pandemiyaya çevrilməsinin qarşısını almaq dövlətlərin, beynəlxalq təşkilatların, insanların nə dərəcədə ciddi olmalarından və hansı addımlar atmasından asılıdır.***

Xəstəliyə səbəb olan viruslar üçün ən yaxşı identifikasiya, “qeyri-müəyyənlikdir”. Bir virusun nə qədər yayılacağı və ya neçə insana yoluxacağı barədə dəqiq bir məlumat yoxdur. Virusun nə qədər insana yoluxacağı bilinməsə də, görülən tədbirlərlə epidemiya nəzarət altına alına bilər. SİA epidemiyaların necə meydana gəldiyini araşdırıb:



### Epidemiyalar necə meydana çıxır?

Tarixdə milyonlarla insanın həyatı bahasına başa gələn virus xəstəliklərinin statistikasına nəzər saldıqda, onların əksəriyyətinin heyvanlardan insana keçdiyi qənaətinə gəlinir. Covid-19 xəstəliyinə səbəb olan koronavirusun da yarasalardan insanlara panqolin yolu ilə ötürüldüyü vurğulanır, baxmayaraq ki, hələ də dəqiq bir dəlil yoxdur. Mütəxəssislərin fikrincə, dünya əhalisinin sürətlə artması, vəhşi heyvanların yaşayış yerlərinə olan təzyiqi, meşə sahələrinin azalması kimi faktorlar insanların təbii olaraq vəhşi heyvanlarla əlaqə yaratmasına səbəb olur.

### Elmi araşdırmalara görə heyvanlardan insana ötürülən viruslar

- QİÇS virusu Şimpanzedən
- Hepatit B virusu Meymunlardan
- Qrip virusu Vəhşi quşlardan
- Vəba xəstəliyinə səbəb olan virusun Gəmiricilərdən
- Denge qızdırması xəstəliyinə səbəb olan virus primatlardan ötürülüb.

“Scientific American” jurnalına görə, insanların ov fəaliyyətləri təhlükəli virusların insanlara ötürülməsində körpü rolunu oynayır. Buna görə, insanlar vəhşi heyvanları ovlamaqla, qeyri-sağlam mühitdə kəsərək onları yemək olaraq istehlak etmək və ya bəzilərini evcilləşdirməklə insana yoluxa biləcək viruslar üçün qapı açılır. Afrikada aparılan bir araşdırmada ovçuların öldürdükləri heyvan qanını içdikləri, üzlərinə sürtdükləri faktları məlum olub. Əslində bu, heyvanda ola biləcək virusun insana ötürülmə riskini artırdığına işarə edir.

Virusların insana necə yoluxduğunu göstərən və Lancet-də yayımlanan bir araşdırmada isə, yenə Afrikada bir qorilla ovlayan və kəsən yerli sakində aparılan qan analizlərində retrovirus ailəsindən olan SFV virusu aşkarlanıb. Bu virus, əsasən qorillalarda tapılan virus növüdür. Aparılan araşdırmalar göstərir ki, bu virusun qorilla ovlayan şəxsə həmin heyvandan keçib.

### Epidemiyalar başlamazdan əvvəl qarşısını almaq olarmı?

Elm adamları virusların aşkara çıxdığı ilk anda onun lokallaşdırılması üçün geniş şəkildə monitorinq aparılmalı və buna uyğun infrastruktur qurulmalı olduğunu vurğulayırlar. Monitorinq şəbəkəsi vəhşi heyvanlardakı mikroorqanizmləri müəyyən edəcək və bu heyvanlarla sıx əlaqədə olan insanlar tez-tez yoxlanılacaq. Beləliklə, virusun insana ötürüldüyü ilk mərhələdə bütün dünya xəbərdan olacaq və virusun baş verdiyi bölgənin karantin altına alınması ilə onun yayılması məhdudlaşdırılacaqdır.

Vanderbilt Universitetinin yoluxucu xəstəliklər üzrə mütəxəssisi Mark Denison fərqli bir yanaşma təklif edib. O bildirib ki, növbəti epidemiyaya hansı virusun səbəb olacağını bilmək sadəcə mümkün deyil. Ona görə də bütün tip viruslara qarşı təsirli olan dərman və peyvəndlər hazırlamaq lazımdır. Denison hər dəfə meydana gələn bir virusa peyvənd tapmaqdan daha çox, virus ailələrinə qarşı təsirli olan dərmanların hazırlanmasını tövsiyə edib.

Heyvanlardan insana keçmə potensialı olan viruslar üzərində çalışan Nathan Wolfe virusun insanlarda erkən aşkarlanması ilə yanaşı, virusun insandan insana yoluxma xüsusiyyətinin olub olmadığını da erkən aşkarlanmasının vacib olduğunu vurğulayıb. Natan Wolfe deyir ki, virusun xüsusiyyətinin erkən aşkarlanması həm də onun epidemiyaya çevirlmə riskini azaldacaq. “Science” jurnalının bir araşdırmasına görə, dünyada potensial olaraq 1,6 milyon zoonotik virus növü var və bunun indiyə qədər yalnız 1 faizi aşkar edilib. Viroloqların fikrincə, vəhşi heyvanlarda insanlara yoluxa bilən təxminən 750 min müxtəlif virus növü var.

***Aysel Məmmədova***

# Bir bəyanat Ermənistanı niyə çalxalayıb?

***Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun Qarabağ münaqişəsinin mərhələli həll olunması ilə bağlı verdiyi məlum bəyanatı nəinki Ermənistanın ictimai-siyasi və müxalif dairələrində, eləcə də Nikol Paşinyan hökuməti daxilində ziddiyyətlər, təlaşlar yaradıb. Xüsusilə, parlamentin hakim "Mənim addımım" blokunda narazılıqlar özünü biruzə verməyə başlayıb.***

## "İrates": "Paşinyanın yersiz layvlarından sonra "Mənim addımım" blokunda anlamağa başlayıblar ki, onları pis günlər gözləyir"



ğa başlayıb. Bunu eyni zamanda, Nikol Paşinyan rejiminin anti-Rusiya xarakterli siyasət yürütməsinin də acı nəticəsi kimi qiymətləndirmək olar.

***Rövşən Rəsulov***





### Hətta hökumət daxilində kəskin qarşıdurmalara start verilib

SİA-nın məlumatına görə, erməni KİV-ləri də bu məsələni artıq günlərdir ki, müzakirə edir, hakim dairələrin, əsasən Paşinyan hökumətinin daxilində cərəyan edən olayları araşdırıb-üzə çıxaran "İrates" qəzeti yazır ki, "Mənim addımım" blokunda təmsil olunanlar onları qarşıda pis günlər gözlədiyinin fərqinə varmağa başlayıblar. Elə məqalənin başlığı da bu cür qoyulub: "Paşinyanın yersiz layvlarından (canlı yayımlarından-R.R.) sonra "Mənim addımım" blokunda anlamağa başlayıblar ki, onları pis günlər gözləyir".

Məsələ həm də ondadır ki, Nikol Paşinyanın birinci müavini Tiqran Avinyan baş naziri sərt şəkildə tənqid edib və artıq onun taleyi barədə müəyyən fikirlər dolaşmaqdadır. "Nikol Paşinyan özünü suda üzən balıq hiss edən Avinyanı quruya çıxarıb, onu boğmağa cəhd edir", deyə yazan erməni nəşri həmçinin qeyd edir ki, bu məsələdə baş nazirə dəstək göstərənlərdən biri də parlamentin spikeri, "boz kardinal" Ararat Mirzoyandır. Belə ki, o Avinyanı baş nazirin birinci müavini postundan uzaqlaşdırmaqla parlamentə "dincəlməyə" göndərir. Beləliklə o, hökumətin bütün rıçaqlarını həmin vasitə ilə ələ almağa çalışır.

### Baş nazirin birinci müavininə qarşı hücumlar və sorosçu qanadın dəstəyi

Artıq baş verənlərdən həm də belə nəticəyə gəlmək olar ki, hökumətdə təmsil olunan kimsə Nikol Paşinyana qarşı çıxacaqsa, onlara qarşı kəskin addımlar atılacaq. Ancaq bu da son deyil. Məsələ həm də ondadır ki, artıq Paşinyan rejiminin uzun müddətdir ki, davam edən parçalanması nəticəsində yaranmış sorosçular qanadı Avinyanın tənqidlərinə dəstək göstərməyə başlayıblar. Habelə onun çıxışlarına dəstək də göstərilir.

"İrates" daha sonra yazır: "Məsələ bununla da bitmir. "Mənim addımım" blokunun sorosçu qanadı Avinyana simpatiya ilə yanaşırlar ki, bu da açıq şəkildə Nikol Paşinyanın xoşuna gəlməməsi ilə yanaşı, həm də onu təlaşlandırır. Onun sonuncu layvlarının birində də məhz buna eyham vurulub".

### Müxalifət də fürsəti fövtə vermir

Baş verənlərdən həm də bu cür nəticə çıxarmaq olar ki, əgər Ermənistan hakimiyyəti daxilində kəskin qarşıdurmalar, hökumət dəhlizlərində ziddiyyətlər yaşanırsa, bu zaman müxalifət də fürsəti necə deyərlər fövtə vermir. Hətta müxalifətin müxtəlif qanadları ilə hökumətin sorosçu qanadı arasında anlaşmaların da mövcudluğu barədə ehtimallar irəli sürülür. Ümumiyyətlə, fakt budur ki, Sergey Lavrovun bir bəyanatı bütün Ermənistanı kökündən çalxalama-

## "Dağlıq Qarabağ danışıqlarının nizamlanması kartı surpriz şəkildə açıldı"



***"Rusiya Xarici İşlər naziri tərəfindən danışıqların nizamlanmasının kartı surpriz şəkildə açıldı". Bu sözləri SİA-ya açıqlamasında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov Ermənistanın törətdiyi təxribatlardan və Azərbaycanla Ermənistanın XİN başçılarının növbəti görüşündə hansı məsələlərin müzakirə oluna biləcəyi məsələsi ilə bağlı danışarkən deyib.***

O bildirib ki, Azərbaycan və Ermənistan arasında danışıqlar masası üzərində mərhələli həll planı çərçivəsində ətraf rayonların azad olunmasıdır və eyni zamanda ikitərəfli mhumanitar məsələlərlə bağlı qarşılıqlı əlaqələrin gücləndirilməsi və bir sıra aksiyaların həyata keçirilməsi istisna deyil: "Lavrovun bəyanatından sonra hansı ki, Rusiya Xarici İşlər naziri tərəfindən danışıqların nizamlanmasının kartı surpriz şəkildə açıldı, əslində çox adam bilirdi ki, mərhələli həll variantı müzakirə predmentidir. Lakin Ermənistan rəhbərliyi ictimaiyyətdən uzun müddət idi ki, bu məsələni gizlədirdi. Hər halda görünən odur ki, Ermənistan tərəfi ərazilərin qaytarılmasına razılıq vermir. Rusiya Xarici İşlər Nazirliyi də buna görə dilə gələrək Paşinyanı əslində müxtəlif məsələlərdə Rusiyaya qarşı apardığı siyasətinə görə cəzalandırmış oldu".

Politoloqun sözlərinə görə, Cənubi Qafqazda bundan sonra gedəcək proseslər kifayət qədər həssas proseslər olacaqdır: "Gələn ildən etibarən bölgə kifayət qədər mürəkkəb geosiyası və qlobal güclərin geosiyasi qarşıdurmasının mərkəzinə çevriləcək. Belə olan təqdirdə təbii ki, hərbi, iqtisadi-siyasi və ümumiyyətlə, beynəlxalq arenada güclənməyi hədəf götürən Azərbaycan bütün parametrlərinə görə Ermənistana qalib gəlməkdədir. Ermənistana xeyr edən müəyyən məsələlər var, bu, əgər vəziyyət müharibəyə doğru dəyişərsə müəyyən dövlətlərin Ermənistanın arxasında olmasıdır. Burada da Ermənistanın və ermənilərin özünə əmin olması kifayət qədər onlar üçün risklər yarada bilər. Çünki vəziyyət hər an dəyişə bilər və heç də ermənilərin gözləntiləri baş verə bilməz. Amma açıq-aşkar görünən odur ki, erməni tərəfi provokasiya ilə məşğuldur və onlar Azərbaycanı təxribata çəkmək istəyirlər".

***Nigar Məmmədova***

## Erməni siyasətçi: "Dünyanın heç bir yerində Paşinyanı ciddiyə almırlar"

***"Dünyanın heç bir yerində, o cümlədən Rusiyada Ermənistanın baş naziri Nikol Paşinyanı ciddiyə almırlar". SİAErmənistan KİV-inə istinadən xəbər verir ki, bu barədə erməni siyasətçi David Şahnazaryan bildirib. Rusiya Xarici İşlər naziri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsi və Ermənistan üçün qaz qiymətləri ilə bağlı açıqlamasına münasibət bildirən D.Şahnazaryan bildirib ki, başqa dövlətə qarşı belə edilsəydi, deyərdim, gülüncdür, amma bu vəziyyətdə faciəlidir.***



Onun sözlərinə görə, dünyanın heç yerində belə üslub qəbuledilməzdir: "Beynəlxalq münasibətlərdə belə iş tərzi qəbuledilməzdir və bu səbəbdən dünyanın heç bir yerində Paşinyanın hakimiyyəti ciddi qəbul olunmur. Lavrovun doğru və ya yanlış danışdığını bir kənara qoyaq, müttəfiqlərlə belə dildə və sözlərlə danışmaq düzgün deyil".

D.Şahnazaryan həmçinin Ermənistanın beynəlxalq vəziyyətində köklü dəyişiklik olduğunu bildirib və bunu ölkənin açıq-aşkar zəif xarici siyasət komandası ilə əlaqələndirdiyini vurğulayıb. O, Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən daim "fırıldaqçılıq" faktlarını olduğunu da qeyd edib: "Ermənistanın və Rusiyanın rəsmi mətnlərində ciddi fərq var. Ermənistan versiyasında rus dilində olmayan böyük abzas var, rus dilində "güzəşt" yazılıb, erməni dilində isə "qarşılıqlı güzəşt". Onun fikrincə, bu, təkcə xarici siyasətdə deyil, Ermənistanda həyatın bütün sahələrində müşahidə olunur: "Paşinyan hökumətinin səriştəsizliyi və savadsızlığı ümumxalq fəlakətinə çevrilib".

***Aysel Məmmədova***

## Lavrov: "Pandemiya bütün ölkələrin qarşılıqlı asılılığını göstərdi"

"Koronavirus pandemiyasının bütün mənfi nəticələri bitməsə də, böhran bütün dövlətlərin qarşılıqlı asılılığını və bir-birinə bağlılığını əyani şəkildə göstərdi". SİA-nın xəbərinə görə, bunu Rusiyanın Xin başçısı Sergey Lavrov açıqlayıb. "Hazırda pandemiyanın tam nəticələri ilə qarşılaşmamışıq. Lakin hazırki mərhələdən müəyyən mənada nəticə əldə etmək olar. Mənim fikrimcə, nəticələrin ən başlıcası dünyada böhran olmasına baxmayaraq, bütün dövlətlərin, həyatın bütün sahələrinin qarşılıqlı asılılığını və əlaqəsini göstərməsidir", - deyə Lavrov qeyd edib.



## İranda daha 96 nəfər koronavirusdan ölüb

İranda ötən 24 saat ərzində 96 nəfər koronavirusdan (COVID19) ölüb. Bu barədə İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinə istinadən məlumat verib. Nazirliyin mətbuat xidmətinin rəhbəri Kiyanuş Cahanpurun sözlərinə görə, beləliklə İranda koronavirusdan ölənlərin sayı 5 806 nəfərə yüksəlib. Nazirlik rəsmisi deyib ki, ötən sutka ərzində daha 991 nəfərin koronavirusa yoluxması təsdiqlənib. Beləliklə İranda 19 fevraldan bu günədək (27 aprel) koronavirusa yoluxanların sayı 91 472 nəfərə çatıb. Onlardan 3 011 nəfərinin vəziyyəti ağırdır. Cahanpur İranda indiyədək 70 933 nəfərin koronavirusdan sağaldığını deyib. İranda indiyədək koronavirusun diaqnozu ilə əlaqədar 432 mindən çox test həyata keçirilib.

# Dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim...

## Yaxud Gültəkin Havcıbəyli - siyasi savadsızlıq və səbatsızlıq



***Bir** müdrük kəlamda deyilir ki, “Hansı yana gedəcəyini bilmirsənsə, hansı yolla getməyinin heç bir əhəmiyyəti yoxdur”. Siyasətin çirkin iş olduğu haqqında da belə deyirlər ki, “əslində siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur”.Bəli, bu gün dağıdıcı müxalifət düşərgəsində koronavirusla bağlı “evdə qal”a alışa bilməyən radikal düşərgə təmsilçiləri yaman alışıb yanırlar.*

Belə ki, AXCP sədri Əli Kərimlinin “danışan dili” olan “Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin baş verən bu hadisələrdən, görünür yaman cuşə gəlib. Belə ki, sosial şəbəkələrdəki həqiqətdən uzaq, şər-böhtan dolu çıxışlarını dinlədikcə həmin fikirlərin həqiqət olduğuna bir daha əmin oluruq.

### Kor tutduğunu buraxmayan Hacıbəyli...

Kor tutduğunu buraxmayan kimi satqınçılığın min sifətli Gültəkin Hacıbəyli burnunu soxmadığı yer qalmadı, indi də epidemiyanın tuğyan etdiyi məqamda başlayıb sosial şəbəkələrdə çağırışlar etməyə ki, “Azərbaycan ağır durumdadır”. Bax, budur kor olmaq. Yadımdadır, “Azadlıq” qəzeti son günün yaşadığı anlarda G.Hacıbəyli qəzetin bütöv səhifəsini özününküləşdirərək çeynənmiş cızmaqarasını gördüm. Bunları tutuquşu kimi əzbərləyib artıq neçə illərdən bəri təkrar edirsən. Düz o vaxtdan ki, deputatlıq pilləsi əlindən çıxdı. Birbaşa deyilsə də, deputatlıqdan sonra müəyyən bir dövr keçdi və sənin siyasi əqidən (əgər o səndə ümumən var idisə) tamamilə dəyişdi. Gəl sənin əvvəlki çıxışlarına, danışıqlarına baxaq, bu gün söylədiklərinə baxaq. Bu iqtidar cəbhəsindən müxalifət cəbhəsinə keçməyinin səbəbləri...tarixi çox müəmmalıdı. Axı deputatlığının son illərində sən çox hətərən-pətərən danışırdın. Artıq bu küçə sənə, necə deyirlər, dar gəlirdi. Sən əmin idin ki, səni hələ daha böyük vəzifələr, daha yüksək zirvələr gözləyir və bu günsabah bunlar hamısı gerçəkləşəcək. Bəlkə də olmalıydı, amma olmadı. İlk növbədə sənin qeyri-peşəkar fəaliyyətin nəticəsində. Və bu ümidlərin puç olduqda başladın “mənəm-mənəm” deməyə, bu da bir nəticə vermədi. Bəlli oldu ki, hay-küylə istəyə nail olmaq olmaz. O zaman üz tutudun müxalifətə.

Bax, yuxarıda qeyd etdiyim kimi, burnu girmədiyi yer də qalmayıb, bax fakt-faktlığında qalır. Ancaq kim və nəyə nail oldun?. Bu yerdə aşıqların yanında olan züy tutan yadıma düşdü. Ancaq züy tutanlar məndən incinməsin, gözəl sənətdir, musiqiyə rəng verir. Ancaq Əli Kərimli kimi satqın şeytan, iblisin yanında ancaq kimə isə “əmrləri” yerinə yetirən ola bilərsən, o baxımdan da G.Hacıbəyli uzaq başı kimə isə ancaq züy tuta bilərdin. Çünki Milli Məclisin iclaslarında dəfələrlə aydın görürdük ki, dərin biliyə və qabiliyyətə malik deyilsən. Və məhz bu gün koronavirusla bağlı dövlətin apardığı uğurlu addımları görə bilməyərək “Azərbaycan ağır durumdadır” deyə sosial şəbəkələrdən “konslagerdən” xilas olmağın çıxış yolu evdə qalmamaq” çağırışını etməklə, bir daha əsil sifətini göstərirsən. Və xalqı “haqq” yoluna çağırışlar edirsən. Sən bu günə kimi haqla nahaqqı ayırd edə bilməmisən... Doğurdan da, adam özündə olmayandan danışmaq ... Sən daxilən o qədər miskinləşmisən ki, bizim dünya boyda olan Azərbaycanı kor gözlərinlə zülmət içində, qaranlığa qərq olmuş görürsən. Sual edərdim, 10 il ərzində nəyə nail olmadın, ay nankor? Bir də bu təəccüb də doğurmur. Çünki bu vətəni heç vaxt sevməmisən. Çünki şeytanla belə “iş birliyi” qurduğun üçün həmişə də ermənilərə işləmisən. Bir də, Əli Kərimli kimi erməni çörəyi yeyən şeytan, iblisin yanındasan və bu gün belə bir ağır anda xalqı mitinqə çağırırsan. Hansı üzlə xalqın adını çəkirsən? Əsil xalq düşməni sizin kimi satqınlardır. Görünür, xəstə beynində xalqın adından iqtidara böhtan atmaq sənə görə daha tutarlı səslənir? Doğru deyiblər: kor gözləri görməyən deyil, görmək istəməyəndi.

### “Gücsüzlər neyləyir eləsin, axır yenə güclülərdir qalib gələn”

Görünür, bu savadsız, satqın Gültəkin Hacıbəyli Şillerin bu ibrətamiz sözlərindən xəbərsizdir. Xəbərin olsun ay şeytanla “iş birliyi” quran rəzil qadın. Şiller deyirdi ki, “gücsüzlər neyləyir eləsin, axır yenə güclülərdir qalib gələn”. Və bu gün sənin kimi rəzillər bilməlidir ki, Azərbaycanın qalib iqtidarı ilə məğlub müxalifətinin əmin-amanlıq içərisində yaşamağı da elə bu iqtidarın təntənəsidir. Və bir məqamı da unutma ki, nə edirsənsə, bu virusun dünyanı bürüdüyü bir məqamda sosial şəbəkələrlə nə qədər çağırışlar edirsən et, xalqı sizin kimiləri çoxdan arxivin zibilliyinə atıb. Və böyük Sabir demişkən: “Çalxalandıqca, bulandıqca zaman nehrə kimi, Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!..”.

Bir də bu həqiqəti də unutma ki, sən illər keçsə də, sən heç kim olaraq qalacaqsan... Çünki sən o Gültəkinsən ki, dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olacaqsan!. Bax, buna görə adamın yazığı gəlir sənə. Ona görə ki, insanın - Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, İ.Məmmədovun və ...bu kimi satqınların timsalında rəzil günə düşməsi, elə də təsirli deyil. Ancaq qadının bu kökə düşməsi dəhşətdir. Yazıqlar və LƏNƏTLƏR OLSUN SİZLƏRƏ!!!

***Rəfiqə Hüseynova***



# İsti su vay, soyuq su vay!

Təhmasib Novruzov

***Bizim** özünü “ana”, “ata” müxalifət adlandıran gözəl-göyçək, nazlı-qəmzəli, şərdən tutmuş böhtana,təhqirdən tutmuş söyüşə qədər bütün pis əməllər sarıdan çox bacarıqlı, əvəzolunmaz siyasi oyunbazlarımıza lap məəttəl qalmışam. Ha istəyirsən ki, onlarda bircə dənə də olsun müsbət keyfiyyət tapıb, bir yaxşı yazı yazasan, tapılmır ki, tapılmır.*

Allah qəni-qəni rəhmət eləsin (Rəhmət oxudum a..Yeddisini istəməyin), Molla Nəsrəddin bir gün bazardan bir uzunqulaq (Yəni, ayıb olmasın, eşşək) alıb gətirir. Oğlunu çağırıb deyir ki, get heyvancığaza bir az su ver. Oğlu gəlir, su arxından vedrəni doldurub qoyur heyvanın qabağına, heyvan başlayır suyu içməyə, oğlu da durub onu seyr edir. Uzunqulaq suyu içib qurtarmamış, Molla Nəsrəddin gəlir onların yanına. Soruşur ki, heyvana suyu hardan verdin. Oğlu deyir arxdan. Eləmir tənbəllik, oğluna bir şillə: Tez ol götür suyu, heyvanın ağzı dondu! Bir gün keçir, oğlu gedib sobanın üstündən çaydanı götürüb, tökür bir vedrəyə, gətirib qoyur uzunqulağın qabağına. Molla Nəsrəddin yenə gəlir oğlunun yanına, soruşur ki, suyu hardan götürdün? Deyir sobanın üstündən. Molla yenə oğluna bir tərs şillə ilişdirir: Tez ol götür, heyvanın ağzı yandı. Oğul da bu dəfə dözməyib atasının üzünə qayıdır: Soyuq verirəm vurursan, isti verirəm, vurursan. Bəs mən nə verim ki, vurmayasan?

Çoxlarına məlum olan bu lətifəni elə-belə danışmadım. Lətifəsi onlardan uzaq olsun (Lap yaxın olsa noolasıdı ki, ey...), Molla Nəsrəddinin heyvancığazı kimi, bunlara nə verirsən, deyir pisdi. Bir vaxtlar ölkədə kadr islahatının vacibliyindən danışırdılar. Hakimiyyət kadr islahatına başlayan kimi, vaxtilə qəzetlərində korrupsioner, rüşvətxor, hətta heyvan adlandırdıqları həmin kadrların balı çıxdı. Çəkdilər döşlərinə ki, a kişi, sənin qədrini bilmədi bu hakimiyyət, gətir pulunu bizimlə böl, biz sənə dəstək verək. Hakimiyyəti ölkə əhalisinin əmək haqqını, pensiyasını az verməkdə günahlandırırdılar. Bir ildə iki dəfə sosial paket qoyuldu ortaya, əmək haqqları da, pensiya da bir il ərzində 70-80 faiz qrtırıldı. Bu zavallılar il ərzində əməkhaqqı və pensiyanın belə artımı üçün dövlət nələr etdiyini anlamadıqlarından və iqtisadi siyasətin əlifbasından belə bixəbər olduqlarından, bunu da başladılar hakimiyyətin xalqa yarınması(?) kimi qələmə verməyə. Bir dəfə də olsun demədilər ki, hakimiyyətin bu addımını təqdir edirik və gələcəkdə davam etməsini istəyirik. Bütün sosial şəbəkələrdə bar-bar bağırırdılar ki, hakimiyyət bizimlə dialoqa getmir. Hakimiyyət bunu da nəzərə aldı. Prezident Administrasiyasında yeni bir şöbə yaradıldı. Bu şöbənin məqsədi ölkədəki siyasi partiyalarla əməkdaşlığı nəzərdə tutur. Dəvət edildilər.

Digər partiyalar dövlətin mənafeyi naminə əlində təkliflərlə buyurdular dialoqa. Amma “ana” və “ata” müxalifət obrazında oynayan AXGP və Milsiz Şura (Yanlışlığa görə üzr istəyirəm: AXCP və Milli Şura) daşları atdılar, başlarını tutdular ki, yox, bu xəyanətdi(???). Anlamaq olmur, milli və dövlətçiliklə bağlı tale yüklü məsələlərin müzakirəsində hakimiyyətlə birgə müzakirələrə qatılmaqdı xəyanət, yoxsa xaricdəki ağalarının sifarişi ilə bu dialoq imkanından imtina eləmək? Xülasə, sözüm onda da deyil. Məni ən çox bu yazıya vadar edən nə oldu, bilirsiniz? Arxiv iyi verən bu siyasət dəllalları az qala otuz ildi digər islahatlarla yanaşı məhkəmə islahatının həyata keçirilməməsindən də şikayət edirdilər. REAL partiyasının sədri İlqar Məmmədovun Ali Məhkəmənin Plenumuna verdiyi şikayət ərizəsinə baxılaraq, onun iddiasının əsaslı olduğu qənaətinə gəlinmiş və İlqar Məmmədova bəraət verilməklə, ona dəymiş maddi və mənəvi zərərin ödənilməsi haqqında qərar çıxarılmışdır. Vəssalam! Sən demə İlqar Məmmədov hakimiyyətlə separat (?) danışıqlara gedibmiş. Buna görə də onun iddiası müsbət həll edilmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsinin qəbul etdiyi bu yekun qərar yenə bütün ictimaiyyət, o cümlədən əksər siyasi partiyalar tərəfindən alqışlandı. Çünki İlqar Məmmədovu yaxından tanıyan hər kəs, mən də daxil olmaqla bilir ki, bu adam heç vaxt, heç kimə əyilməyən bir siyasətçidir. Xalqın və millətin mənafeyinə zidd olan, istənilən yerdən gələn təklifə də heç zaman boyun əyən biri deyil. Belədə, Məhkəmə sistemində islahatların işartısı olan bu qərardan sevinmək əvəzinə, həmin bayaq adlarını çəkməyə məcbur olduğum o iki qurum yenə əksinə getdi. Yaxşı, o zaman sual olunur, bu iqtidar milli və dövlətçilik mənafeləri baxımından daha hansı addımları atmalıdır ki, ağızları əyri olan bu şər-böhtan qruplaşması ondan razılıq etsin? Bunun da cavabı həmin lətifənin xalq arasında yayılan versiyasında var. Həmin versiyada Mollanın oğlu atasının bu hərəkətinə dözmür və gecə ikən uzunqulağı tövlədən çıxarıb, aparır meşəyə. Heyvancığazın başına nə oyun açırsa, qanmaz olsa da, daha o biri heyvanların üzünə çıxmağa utanır və Mollanın evini də, hələ desən kəndi də tərk edib gedir köhnə sahiblərinin yanına. Vəssalam!

## Ağdaş sakinindən marixuana götürülüb



**N**arkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxs tutulub. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında Yevlax rayonu ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Ağdaş rayon sakini F.Məhərrəmov saxlanılıb. Şəxsi axtarış zamanı ondan 1 kiloqram 180 qram marixuana aşkar edilərək götürülüb. Davam etdirilən tədbirlərlə onun tanışı olan həmyerlisi T.Mustafayevə məxsus “Mercedes” markalı avtomobilə baxış zamanı 37 qramdan artıq marixuana aşkar edilib.

## Bərdədə avtomobillər toqquşub, iki qardaş ölüb



**B**ərdə rayonunun Köbər kəndi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, aprelin 26-da saat 15 radələrində Bərdə rayonunun Köbər kəndi ərazisində Mustafaağalı kənd sakini H.Məmmədovun idarə etdiyi “VAZ-21074” və Bakı şəhər sakini Elnur Cəfərovun idarə etdiyi “Nissan” markalı avtomobillər toqquşub. Nəticədə E.Cəfərov hadisə yerində ölmüş, sərnişini olan qardaşı Seymur, habelə digər sürücü xəstəxanaya yerləşdirilmiş, Seymur orada ölüb. Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

## Qaradağda “Hyundai” markalı avtomobilin vurduğu piyada hadisə yerində ölüb

**Q**aradağ rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Lökbatan qəsəbəsi ərazisində yolu keçən 30-35 yaşlı kişini qəsəbə sakini Ə.Fərəcov idarə etdiyi “Hyundai” markalı avtomobillə vurub. Nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Qaradağ Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

# Əli Kərimlinin REAL-a hücumu

*AXCP sədrinin siyasi oyunbazlıqları istədiyi nəticəni vermir*

**AXCP-nin sədri Əli Kərimlinin trollarına REAL partiyasına qarşı "fas" (hücum) əmrinin ardınca düşərgə daxilində müəyyən çaxnaşmalara start verilib. Artıq müəyyən cinah dəyişmələri, əsasən də kimlərin hansı tərəfi tutacaqları, kimlərə dəstək verəcəkləri ilə bağlı mülahizələr də irəli sürülməkdədir. Daha dəqiq desək, hətta ənənəvi müxalifət partiyaları arasında belə bir fikirlər formalaşmağa başlayıb ki, bu gün müxalifəti parçalayan əsas tərəf AXCP sədri Ə.Kərimli göstərildiyinə görə, bir sıra siyasi təşkilatlar daha çox REAL partiyasına qahmar çıxırlar.**

Bu minvalla isə Ə.Kərimliyə və ətrafına çatdırılır ki, onun trollarını İlqar Məmmədovun üzərinə qısqırtması nəticəsiz qalacaq, hətta AXCP sədrinin sosial şəbəkələrdəki media dəstəkçiləri də onun yardımına çata bilməyəcəklər. Bütün bunlar öz yerində.


Natig Jafarli
3 saat
İzlə
Milli Şura şəxsimə və REAL-a qarşı qarayaxma, çamuratma kampaniyasını ərşə qaldırıb. Fikri olub beyni olmayan bir qrup adam (sayları 100-ü keçmir, sadəcə hər birinin də 4-5 saxta profili var) küy yaradaraq fikir formalaşdırmağa çalışırlar.
olan adamlar tərəfindən
Həmin siyasi düşüncə
kampaniyanı ya öz təşk
partiyalara qarşı aparıl
məmur olan onlarla ada
görəndə sanki havalanı
salırlar. Musavat Partiyə
onlara qarşı da apardıl
qədər çoxsəsli və müxt
özlərinə xeyirdir. Çünki,
durumları daha pis vəzi
gücünü tək onlara yönə
deməli beyinləri yoxdur.
Azad Söz verlişində Tur
mətləblərdən danışdım,
eyni miqdarda təhqir və
bunlar məni söyürlər, bu
beyinsiz kütlə üçün də t
Video ortada, girin baxı

Gültəkin Hacıbəyli-Gultakin Hajibayli
2 saat
Dostlar, Natiq Cəfərli bir status yazıb, hakimiyyətə dəstək xarakterli çıxışlarını, [redacted] namizədinin seçkidə müxalifətə qələbə çalacağı haqqı fikirlərini malalamaq üçün yenə məni hədəf alıb, hətta [redacted]-dan çıxdığ
Yeri gəlmişkən, mən heç
gün mandat almaq üçün
uşam. Oranı bir dəfə "zoo
ərin məkanı da oldu. Bunu
şistlərin zooparkında uğu
a görə yazmışam. Natiq
zv olmaq istədiyimi və "yo
ağ və həyasız yalandır.
vaxtsa ağlımın ucundan
z İlqar bəylə olub. İlqar bə
ğu Avropa Məktəbinin İd
ti qəbul edib həmin məkt
11-ci ildən Ziyalılar Forum
ər iki təşkilata da öncədən
rindən sonra, onları tək
təklifi və dəvətilə Avropa
birlikdə Varşavada keçiri
rin bütün xərclərini Avrop

İlqar Məmmədov
3 hrs
[redacted] üzvləri Natiq Cəfərlini birinci dəfə hədəfə alıb qaralamaq cəhdi etmirlər.
Mən həbsdən çıxandan dərhal sonra Sevinc Osmanqızı zəng vurub "xəbərçi"liyi birinci etdi, təxminən belə: "İlqar, sən bilirsən, Natiq Cəfərli Mehriban Əliyevanın vitse-prezidentliyinə "niyə də yox" deyib."
Natiqə heç nə demədim, mövzunu dibinə kimi araşdırdım. Saxta və boş bir ittiham idi. Fikirləşdim ki, Sevinc xanım sadəcə səhv edib. Sonra gördüm ki, Sevinc Osmanqızı bir partiyanın mətbuat katibi imiş.
Əməkdaşlığı kəsdim, çünki mənim bir partiya sədrinə deməyə sözüm varsa, birbaşa özünə deyərəm, mətbuat xidmətinə yox.

### REAL-ın AXCP-nin "ana müxalifətçilik" iddiasının üzərindən çarpaz xətlər çəkə biləcəyi ehtimalları, qorxusu Əli Kərimliyə dinclik vermir

Ancaq fakt öz faktlığında qalır ki, istər İ.Məmmədov həbsdə olanda, istərsə də həbsdən azalığa çıxandan sonra Ə.Kərimlinin ona qarşı mövcud olan antipatik hissləri get-gedə daha da artmağa başlayır. Yəni onun tərəfindən siyasi konkurentlik, aşkar rəqiblik amili kimi görünən REAL partiyasının bir gün AXCP-nin "ana müxalifətçilik" iddiasının üzərindən çarpaz xətlər çəkə biləcəyi ehtimalları, qorxusu Ə.Kərimliyə dinclik vermir. Ona görə də, nəinki indi, elə bir neçə müddətdir ki, İ.Məmmədova və ətrafına qarşı "hücum taktikasını" həyata keçirir. Beləliklə, AXCP sədri Ə.Kərimlinin xeyir-duası ilə REAL-a qarşı başlanan hücum kampaniyası davam edir...

Bu arada onu da xatırlatmaq yerinə düşərdi ki, məhz REAL və digər bir neçə müxalifət partiyaları ölkədə keçirilən son parlament seçkiləri ilə bağlı normal münasibət göstərdilər. Bu reallıq isə, radikalçılıq baxışından çıxış edən AXCP-"Milli Şura" cütlüyünü qıcıqlandırırdı. Biz elə də uzağa getməyərək, hələ ötən ilin sentyabrında, yəni seçkilərdən əvvəl REAL-ın loyal münasibəti qaragüruhçu qrupları narahat etməyə başlamışdı. Nəinki İ.Məmmədov, o cümlədən partiyanın digər rəsmiləri hücumlara məruz qaldılar.

### Zaman və müddət heç nəyi dəyişməyib

Cəbhəçi trollar tərəfindən hücuma məruz qalanlardan biri də REAL-ın icraçı katibi Natiq Cəfərli, hazırda deputatlıq mandatını qazanımş Erkin Qədirli, Rəsul Cəfərov və sairləri olub. Bunu isə ona görə xatırladırıq ki, zaman və müddət heç nəyi dəyişməyib, hətta illər keçərsə belə, Ə.Kərimlinin kini İ.Məmmədovun və partiyadaşlarının üzərində qalmağa davam edəcək. Daha doğrusu, əgər bu gün AXCP trolları necə davranırlarsa, dünən də elə olub, sabah da bu cür davam edəcək, əlbəttə ki, AXCP düşdüyü iflas burulğanından xilas olmağa macal taparsa...

### Natiq Cəfərli Gültəkin Hacıbəylini "faşist təfəkkürlü birisi" adlandırmışdı və yanılmamışdı...

Xatırladaq ki, məhz N.Cəfərli "facebook" səhifəsində "Azad söz" kanalına verdiyi müsahibə zamanı cəbhəçi trolların onu təhqir etməsindən yazmışdı və bu işlərdə başqaları ilə yanaşı, nəinki trolları, həm də "Milli Şura"da Ə.Kərimlinin söz aparıb-gətirəni kimi tanınan Gültəkin Hacıbəylini də ittiham hədəfinə almışdı. Misal üçün, qeyd edə bilərik ki, N.Cəfərli G.Hacıbəylinin müxalifətçi olub-olmadığına dair şübhələrini ortaya qoymaqla yanaşı, onu "faşist təfəkkürlü birisi" adlandırmışdı. Görünür, REAL rəsmisi bu ittihamında, ya da bənzətməsində heç də yanılmayıb.

Daha bir fakt budur ki, REAL partiyasına dəstək göstərənlərdən xarici ölkələrdə yaşayan müxalif düşüncəli şəxslər də var. Məsələn, onlardan biri kimi ABŞ-da yaşayan İsmayıl Cəlilovu göstərə bilərik. Onun sözlərinə görə, hücumların arxasında da məhz AXCP və "Milli Şura" rəhbərliyi dayanır. Həmin vaxt İ.Cəlilov bunu faktlarla sübut etsə də, ona inanmamışdılar. Bu baxımdan, REAL təmsilçisi N.Cəfərli də troll hücumlarının Ə.Kərimlidən qaynaqlandığını deyir, bu məsələdə G.Hacıbəyli və S.Osmanqızının daha çox canfəşanlıq etdiklərini iddia edir.

### İlqar Məmmədov isə, Sevinc Osmanqızını Əli Kərimlinin "mətbuat katibi" adlandırmaqla, onun "ranqını" aşağılamışdı

REAL sədri İ.Məmmədov da status paylaşaraq yazıb ki, S.Osmanqızı faktiki olaraq AXCP-nin mətbuat katibi funksiyasını yerinə yetirir. Bunu bilərdən sonra o, S.Osmanqızı ilə əlaqələrini kəsib: "Əməkdaşlığı kəsdim, çünki mənim bir partiya sədrinə deməyə sözüm varsa, birbaşa özünə deyərəm, mətbuat xidmətinə yox".

Göründüyü kimi, AXCP-REAL qarşıdurması yenidən alovlanmaqdadır. Bu kampaniyada Ə.Kərimli bütün kartlarını oynasa da, meydanda Osmanqızı və Hacıbəyli kimi siyasi rəqqasələr də necə deyərlər, göbək atmaqda davam edirlər. Amma bu kimi cəhdlər hələ ki, nəticəsiz qalır. Daha dəqiq desək, Ə.Kərimlinin siyasi oyunbazlıqları onun istədiyi nəticələri vermir və belə davam edərsə, heç verməyəcək də...

*Rövşən NURƏDDİNOĞLU*

## İqbal Ağazadə: "Əli Kərimli bu gün də vəziyyətdən sui-istifadə etməklə özünün tərbiyəsini göstərir"



**Son günlər müxalifət partiyaları AXCP sədrinin "ev dustağı" edilməsi ilə bağlı verdiyi bəyanatlara dəstək vermədiklərinə görə Əli Kərimli tərəfdarları tərəfindən kəskin qınanırlar. Və hər gün sosial şəbəkələrdə çıxışlar edən Əli Kərimli bildirir ki, guya ona və ailə üzvlərinə qarşı təzyiqlər edilir, internet və telefon xətləri qapadılıb, yaşadığı ev nəzarətə götürülüb, yanına gələn partiya üzvləri təhdidlərə məruz qalır və faktiki olaraq o, "ev dustağı" edilib.**

### "Əli Kərimli heç vaxt o iblis xislətindən əl çəkə bilməycək"

Ümid Partiyasının sədri İqbal Ağazadə hazırki vaxtda kimlərsə, o cümlədən AXCP sədri Əli Kərimli bundan istifadə edərək özlərinin varlıqlarını nümayiş etdirmək istəyir: "Bu Əli Kərimlinin növbəti oyunudur. Xalq tərəfindən qəbul edilməyən və yox olduğunu ört-basdır etmək üçün növbəti oyunudur. Vəziyyətdən sui-istifadə etmək olmaz, karantin rejiminə hər hansı bir formada əməl olunmamasına qarşı çıxmaq olmaz, adamın tərbiyəsi olmalıdır. Mən ümumi karantin rejimində kiməsə əlahiddə statusun verilməsinin tərəfdarı deyiləm. Çıxmaq istəyirsə, 8103 zəng edib çıxar. Bu karantin rejimidir".

Bəli, bu karantin rejimidir və bu rejim hər kəsə aiddir və burada heç kimin əlahiddə üstünlükləri yoxdur. Ancaq görünür, Əli Kərimlinin hər şeydən şou yaramaq adətindən əl çəkmir. Çünki o, bu gün siyasi arenada hörməti olmayan və küncə sıxışdırılmış siyasətçidir. Onun özü də siyasi karyerasının sonunun gəldiyini anlayır. Lakin...Azərbaycan gerçəkliyində Əli Kərimli xəyanətkarlığı var, özü də saya gəlməz xəyanəti. Bir sözlə, xəyanəti və cinayəti, ümumiyyətlə fəaliyyətinin başlıca prinsipi kimi qəbul edən AXCP sədri Əli Kərimli öz "ənənəsini" bu gün də davam etdirmək istəsə də, yenə də qəbuledilməzdir. demək ki, onun siyasi sonu get-gedə daha da yaxınlaşır. Çünki dezinformasiya, yalan və ajiotaj üzərində qurulan "siyasətin" nəticəsi də belə olmalıdır.

*R.HÜSEYNOVA*

## "Bütün bunlar istər xaricdə istərsə də ölkəmizin daxilindəki antiazərbaycan çevrələr tərəfindən qısqanclıqla qarşılanır"



"Koronavirus pandemiyasının bütün dünyada yaratdığı fəlakətli vəziyyəti əks etdirən məlumatlarla tanış olanda diqqəti cəlb edən əsas məsələlərdən biri infeksiyanın bu və digər ölkələrə vurduğu ziyanların miqyası ilə bağlıdır. Elə dövlətlər var ki, məruz qaldıqları itkilərin səviyyəsi insanda vahimə yaradır. Belələrinin arasında, hətta, güclü iqtisadiyyata, texnologiyaya, səhiyyəyə malik ölkələr də var. Lakin elə dövlətlər də var ki, orada zərərlərin miqdarı nisbətən azdır". Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mais Səfərli deyib.

Onun sözlərinə görə, Azərbaycan bu gün təhlükəli xəstəliyi buxovlamağa, onun gətirdiyi bəlaları, itkiləri xeyli azaltmağa, vəziyyəti nəzarətə götürməyə nail olan az saylı dövlətlərdəndir: "Aparılan təhlillər göstərir ki, pandemiyaya qarşı bu və ya digər konkret ölkədə təşkil edilən mübarizənin nəticəsi həmin dövlətlərdəki siyasi hakimiyyətin gücü, iradəsi , qərarlığı ilə bir başa əlaqəlidir.

Azərbaycanın timsalında biz bunu aydın görürük. Təhlükəli virusun regionumuza ayaq açdığı ilk gündən adekvat kompleks tədbirlər görən, təkcə vətəndaşlarımızın həyat və sağlamlığının qorunması üçün deyil, həmçinin epidemioloji vəziyyətin yaratdığı sosial-iqtisadi problemlərin aradan qaldırılması sahəsində təxirəsalınmaz effektiv addımlar atan ölkə rəhbərliyi son dərəcədə güclü və cəsarətli iradə nümayiş etdirdi. Bu işdə müsbət nəticələrin əldə edilməsi, itkilərimizin minimuma endirilməsi bilavasitə Prezident İlham Əliyevin yüksək idarəetmə bacarığı, möhkəm iradəsi, zəngin dövlətçilik təcrübəsi, nəcib insani keyfiyyətləri ilə sıx bağlıdır. Dövlət başçımızın belə bir çətin və ağır dönəmdə sərgilədiyi fəaliyyət, 1-ci Vitse-Prezident Mehriban xanım Əliyeva ilə bərabər daima insanların arasında olması xalqımızda xoş ovqat yaradır. Vətəndaşlarımız ölkə rəhbərinə hər gün çoxlu sayda minnətdarlıq məktubları göndərirlər. Bunu Prezidentin rəsmi internet səhifəsindən hər kəs izləyə bilər. Ardı-arası kəsilməyən müraciətlər xalqımızın öz liderinə, onun xanımına sevgi və inamının sonsuz olduğunu göstərir.

Təəssüflər olsun ki, bütün bunlar istər xaricdə istərsə də ölkəmizin daxilindəki antiazərbaycan çevrələr tərəfindən paxıllıqla, qısqanclıqla qarşılanır. Onlar soydaşlarımızın, seçicilərin öz Prezidentinin ünvanına söylədikləri qürurverici sözlər, təriflərə ağız büzürlər. Hər şeyi qara rəngdə görən bu qara qüvvələrə bildirmək istəyirəm ki, xalqla Prezidentin arasına girə bilməzsiniz. Bu möhtəşəm birliyin, bərabərliyin altında qalıb əzilərsiniz.

Prezident bizim kimi insandır. Onun da qəlbi, hissləri, duyğuları var. O da, xidmətlərinə görə layiq olduğu xoş sözləri eşitmək istəyir. Bu insan təbiətinə xas olan bir məsələdir. Psixologiya elminin də öyrətdiyi kimi, insana layiq olduğu dəyəri verdikdə bu onda həm xoş təəssürat yaradır, motivasiyasını daha da artırır, onu daha böyük qələbələrə ruhlandırır. Bir sözlə, Prezidentin fəaliyyəti cəmiyyəti məmnun etdiyi kimi, xalqında xoş sözləri, obyektiv qiymətləri dövlət başçısı üçün bir stimuldur".

*Ceyhun Rasimoğlu*

# Ermənistanın “milli qəhrəmanları” kimlərdir?: Terrorçu, “general” “Dro”

***Nide və digərləri ilə birlikdə faşistlərlə çox sıx əməkdaşlıq edən erməni lider Dro (Drastamat Kanayan) idi. Azərbaycan torpaqlarında qatı cinayətlər törədən bu adam cəzasız qalmış və onun Amerikada rahat həyat sürməsinə şərait yaradılmışdır. Drastamat Kanayan 1 May 1883-cü ildə İrəvan Guberniyasının Sürməli uyezdndə (indiki İğdır vilayətinin Tuzluca mahalına bağlı Sürmeli kəndi) doğulmuş, İrəvanda oxumuşdu. Çar rəhbərliyinə qarşı inqilabçı hərəkata girmişdi. Erməni İnqilabçı Federasiyası - Daşnaksutyunun üzvü idi. I Dünya müharibəsində Rusiya İmperator Ordusu tərkibindəki Erməni Könüllü alaylarında komandirlik etdi. 1918 Aprelində qurulan Demokratik Erməni Respublikası tərəfindən “Qərbi Ermənistan Rəhbərliyi” Hərbi Komissarlığına rəis təyin edildi. Qars və Ərzurum cəbhələrində Osmanlı Ordusuna qarşı döyüşdü.***

Eyni il Ermənistan Müdafiə Nazirliyinə gətirildi. Mart 1920-dəki Ermənistan-Azərbaycan müharibəsində və 28 oktyabr - 7 noyabr 1920 tarixlərində Erməni-Türk müharibəsində Erməni ordusuna rəhbərlik etdi. 8 noyabr 1920-ci ildə Kazım Qarabəkir əmrindəki TBMM ordusu tərəfindən məğlubiyyətə uğrayaraq Gümrü şəhərini türklərə təslim etdi. Daha sonra 30 noyabr 1920-ci ildə qəbul edilen Gümrü Andlaşmasını imzalayan Erməni heyətində yer aldı. 1 Dekabr 1920-ci ildə Ermənistanın bolşeviklər tərəfindən işğalından sonra İrana qaçdı. Daha sonra Almaniyaya yerləşdi. II.Dünya Müharibəsində Almaniya ordusu (Vermaxt) tərkibində ermənilərdən ibarət 812. batalyonun başına gətirildi. Krım və Şimali Qafqaz cəbhəsində yer aldı. Müharibədən sonra hərbi cinayətkar elan olunsa da onun ABŞ-a qaçmasına imkan yaradıldı. Almaniyadakı uzun mühacirət dövründə Nasizmin yüksəlişini maraqla izləyən bu erməni çeteci Nasyonal Sosialist Partiyasının iqtidara gəlişi ilə özünü Adolf Hitlerə yaxından tanıtmaq üçün xeyli əlləşmişdi. Hitler, xarici irqlərdən şəxslərə güvənmək kimi bir xasiyyəti olmamasına baxmayaraq onun qırğınlar sahəsində zəngin siyahısını görüncə bu erməni faşistinə tam səlahiyyət verib onu SS birliklərinə bağlı “812-ci Erməni Batalyonu” nu qurmasına imkan vermişdi. Əksəriyyəti ermənilərdən ibarət olan və sonrakı illərdə “Erməni Legionu” adını alacaq olan bu batalyonun ilk mərhələdəki vəzifəsi Almaniya içində yəhudi və qaraçı ovu olmuşdu, sonrakı mərhələlərdə isə Şərq cəbhəsində ruslara vuruşmaq olmuşdu ,daha sonrakı mərhələdə isə o Türklərə qarşı müharibədə yer alacaqdı. Bu Hitlerin tapşırığı da Kanayanın can-başla yerinə yetirdiyi hərbi vəzifə idi. Türkiyənin İğdır Universitetinin dosenti Sözer Akyıldırım “Yeşil İğdır” adlı yerli qəzetdə I Dünya müharibəsi illərində türklərə və azərbaycanlılara, daha sonra II Dünya müharibəsi dövründə yəhudilərə qarşı kütləvi qətliamlar törətmiş erməni faşistdən - “Dro” ləqəbli Drasamat Kanayandan yazır.

Akyıldırım məqaləsində “Dro”nun indiki dövrdə Türkiyə türkləri arasında tanınmadığını, amma Azərbaycanda nifrət edilən bir şəxs olduğunu qeyd edir. Bildirir ki, ömrünü türklərin kökünü qazımağa həsr etmiş qatil olan “Dro” 1914-1918-ci illərdə Erzurum Ərzincan, Van və Qars vilayətlərində 200 minə yaxın müsəlman əhalinin qətlinə görə birbaşa məsuliyyət daşıyır.

Müdafiəsiz türk və müsəlman kəndlərini bombalayıb işğal edən, bir nəfərin belə kəndi tərk etməsinə imkan verməyib qadınlı, uşaqlı hamını qıran cani, türklərin və azərbaycanlıların sistemli qətlini həyata keçirən, etnik təmizləmə aparan qatil 1884-cü il mayın 31-də o dövrlərdə Rusiya imperiyasının tərkibində yer alan İğdırda dünyaya gəlib. Atası tacir olub, uşaq yaşlarında İğdırda məktəbə yazılıb. Məktəbin ətrafında yerləşən hərbi birlikləri müşahidə etməkdən böyük xpşbəxtlik duyurdu. Belə ki, rus işğalı dövründə İğdırda Rusiya ordusunun piyada birlikləri, kazak dəstələri və sərhəd keşikçiləri yerləşirdi.

Sonradan oğlunun kitabla, dərslə maraqlanmadığını görən atası Martiros onu İğdırdakı məktəbdən çıxarıb İrəvan Gimnaziyasına qoydu. Drastamat orada da yaxşı oxumurdu, təhsil rus dilində idi və ruslaşdırma siyasəti aparılırdı. Bu da Drastamatın xoşuna gəlmirdi. Nəhayət o, general Andranikin Osmanlı imperiyasındakı nailiyyətlərindən ruhlanaraq “Daşnaksütun” hərəkatına üzv olub, daşnakların təşkil etdikləri aksiyalara qatılıb. 1905-ci ildə Bakıda meydana gələn erməni-müsəlman qarşıdurması zamanı şəhər meri, ermənilərin ölümünə görə günahkar saydığı Nakaşidzeni küçənin ortasında bomba ilə öldürüb. O vaxt Drastamatın cəmi 21 yaşı vardı.

Drastamat I Dünya müharibəsi illərində Rusiya imperiyası ordusuna bağlı erməni könüllü alaylarında qulluq edib. Könüllü alayın ikinci batalyonunun tərkibində ilk dəfə Bəyazit yaxınlığında döyüşə girib, 24 saat davam edən döyüşlərdə “Dro” ağır yaralanıb. Amma sağ qalıb. Onun batalyonu sonradan Osmanlı ordusuna qarşı 11 döyüşə qatılıb, bu döyüşlərdə “Dro” populyarlaşıb və tanınan hərbi lider olub. 1918-ci ildə Erməni Milli Məclisi “Dro”nun qarşısında Ağrını tutmaq vəzifəsi qoyub, həmin ilin aprelində qurulan Ermənistan Demokratik Respublikası onu “Qərbi Ermənistanın hərbi komissarı” təyin edib. Qars və Ərzurum cəbhələrində Osmanlı ordusuna qarşı döyüşüb, həmin il Ermənistan Müdafiə Naziriliyinə təyin edilib.

1918-ci ildə “Dro”nun qüvvələri İğdıra hücuma keçir, amma Mələkli-Taşburun arasında gedən döyüşlərdə İğdır Milli Cümhuriyyəti başqanı, İrəvan gimnaziyasında tələbə yoldaşı və dostu olmuş Əli Əkbər Tufanın komandanlıq etdiyi qüvvələrə məğlub olur. Əsir düşməkdən son anda canını qurtarır.

1920-ci ilin əvvəllərində “Dro” Azərbaycan torpaqlarından Şuşa yaxınlarına qədər irəliləyib. Həmin il Novruz bayramı günlərində Qarabağ erməniləri üsyan qaldırmışdı. Bu üsyanda minlərlə azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. 7 mindən çox ev yandırıldı, “Dro” və adamları Şuşada da qətliam törətdilər və minlərlə azərbaycanlını öldürüb mal-mülklərini qarət etdilər. Həmin ilin aprelində Azərbaycanı işğal edən Qırmızı Ordu “Dro”ya Qarabağdan çəkilmək barədə ultimatum verir.

1920-ci il noyabrın 14-də İğdır Atatürkün silahdaşı Kazım Karabekirin komandanlıq etdiyi qüvvələr tərəfindən ermənilərdən təmizlənərkən “Dro” Gümrü anlaşmasını imzalayan erməni heyətin tərkibində yer alırdı. Həmin ilin dekabrında Ermənistandan qaçan “Dro” İrana, oradan Almaniyaya yerləşir.

Almaniyadakı sürgün illərində “Dro” faşistlərin yüksəlişini yaxından izləyirdi və Hitlerin başçılıq etdiyi Milli Sosialist Əmək Partiyası hakimiyyətə gələndə onun da uluzu parladı. “Dro” Hitlerlə yaxından tanış oldu, Hitler başqa irqlərdən olanlara güvənməsə də erməni faşistin hansı kütləvi qətliamlar törətdiyini bilib ona tam səlahiyyət verdi, general rütbəsi iə təltif edib SS birliklərinin tərkibində 812-ci erməni polku yaratmasına nail oldu.

Sonradan “Erməni legionu” adlanan bu polkun vəzifəsi əvvəlcə Almaniyada yəhudiləri təmizləmək, müharibənin sonrakı mərhələsində isə türklərə qarşı döyüşmək idi. Türklərə və azərbaycanlılara qarşı qətliamlarla ad çıxarmış “Dro” tezliklə yəhudi qətliamları ilə də faşistləri heyran qoydu. SS içərisində “yəhudi ovçusu” kimi şöhrət qazandı. Hitler onu Krımda və Şimali Qafqazda idarəçi təyin etməyə hazırlaşırdı.

Amma faşist Almaniyası müharibədə məğlub olanda “Dro” üçün bir daha “qürbət yolları” görünür. Şübhəsiz ki, SSRİ onu amansız vətən xaini hesab edirdi, KQB-nin hazırladığı siyahıda ən öəmli hərbi canilər arasında yer alırdı. ABŞ, İsrail və SSRİ müharibə canilərinin ovuna başlamışdı. “Dro” yaxalanmamaq üçün Beyruta gedir, orada bir müddət gizlənir.

Bir müddət sonra liqanlı bu qatil erməni diasporunun yardımları sayəsində “mühacir” statusunda ABŞ-a yerləşir, özü ilə bütün ömrü boyu rahat yaşamağ bəs edəcək qədər sərvət də götürərək Massaçustes ştatının Boston şəhərində yaşamağa başlayır. Orada FTB “Dro”ya tək xəbərdarlıq etmişdi-”səsini kəs, az danış”. Və “Dro” bu xəbərdarlığa əməl edir, ABŞ-da yaşadığı dövrdə yəhudi agentləri birdəfə də olsun onu narahat etmir. 1956-cı ildə 72 yaşında ölür və Massaçustesdə basdırılır.

Nəhayət 1990-cı illərdə sonrakı nəsil erməni faşistləri Ermənistanda baş qaldıranda “Dro”nun qalıqlarının Ermənistana gətirilib dəfn olunması məsələsi qalxır. Erməni xalqının bu “milli qəhrəmanının” qalıqlarının Ermənistana gətirilməsi üçün diaspora yardım çağırışı edilir. Qısa müddət ərzində-iki günə diaspor bu işə 1 milyon dollar toplayır və Yerevana göndərir. 2000-ci prezident Robert Köçəryan “Dro”nun sümüklərinin Ermənistana gətirilib Aparan şəhərində, piramida şəkilli abidəməzarda dəfn edilməsini təşkil edib.Müəllif daha sonra ABŞ-ın Osmanlı Türkiyəsindəki səfirliyinin müşaviri Robert Dannın I Dünya müharibəsində gördüklərindən bəhs edən və 1952-ci ildə Nyu-Yorkda çapdan çıxmış kitabında “Dro”nun törətdiyi qətliamlar barədə səhnəni sitat gətirir: “...Sonra “Dro”nun birlikləri gəldi. Sırada əvvəlcə düz qara saçlı, iri gözlü müsəlman qız uşağı vardı. Ən çoxu 12 yaşında olardı. Onu az əvvəl qarət etdikləri çuvallardan yerə tökülmüş taxıl dənələrinin üstünə üzü üstə yatırtdılar. Ermənilərdən biri ətrafa çox qan sıçramasın deyə tüfəngini dərhal onun iki köksünün arasına uzatdı və bu məsafədən tətiyi çəkdi. Atəş etdiyi nöqtədə qurbanın əldə toxunma paltarı dərhal qana boyandı...Ardınca sıra 10 yaşında, bəlkə də daha kiçik müsəlman oğlan uşağına gəldi. Üstündə xam dəridən jaket və şalvar var idi. Ermənilər onu yola üzü üstə uzatdılar, bu vaxt uşağın əlindəki qalaylı qab düşüb diyirləndi. Onu da vurdular. Güllə uşağın alnının bir az aşağısından girib onurğasını parçaladı. Bu arada ətrafdakı müsəlman kəndlərində qırğın bütün gücüylə davam edirdi. Ancaq mən bu mənzərəyə daha baxa bilmədim. Sonradan “Dro”nun yanındakı erməni polkovnik kənddən tək bir canlının belə qaça bilmədiyini, hamısını bir-bir öldürdüklərini danışdı...”.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

28 aprel

## Hadisənin "dodaq uçuqladan" bahalı qarderobu



**Qalmaqallı açıqlamaları ilə gündəmdən düşməyən Türkiyənin cazibədar müğənnisi Hadisə dəbdəbəli zövqü ilə seçilən məşhurlardandır.**

Sənətçinin geyim tərzi günlərlə maqazin proqramlarında müzakirə olunur, hətta həmkarları tərəfindən təkrarlanır. Sənət yoldaşlarından fərqli olaraq, müğənni qiymətinəfərq qoymadan yalnız dünya şöhrətli brendlərə üstünlük verir.

Oxu.Az türk pop səhnəsinin ulduzu Hadisənin bir-birindən fərqli və göz oxşayan libas və aksesuarlarının hansı brendə məxsus olduğunu, dəyərini "Instagram"da populyarlıq qazanan "Kim haradan geyinir?" səhifəsinə istinadən təqdim edir:

Müğənninin konsertə geyindiyi qızılı rəngli kostyum "Dundas world" markasına məxsusdur. Pencəyin qiyməti 4233 manat, tulumun isə 1397 manatdır.

## Maradonanın forması İtaliyada 55 min avroya satıldı



İtaliyada koronavirusla mübarizəyə dəstək məqsədiylə keçirilən yardım aksiyasında əfsanəvi futbolçu Dieqo Maradonanın forması hərraca çıxarılıb. Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, Maradonanın Argentina millisində geyindiyi forma 55 min avroya satılıb. Bu pul koronavirusa yoluxanlara yardım etmək üçün istifadə olunacaq. Maradonanın forması "Napoli"də oynayarkən komanda yoldaşı olan Çiro Ferrara tərəfindən hərraca qoyulub.

## Neymarın anası oğlanlarla görüşən 23 yaşlı sevgilisindən ayrıldı!



**Futbol üzrə Braziliya yığmasının və Fransanın PSJ klubunun futbolçusu Neymarın anası Nadin Santos 23 yaşlı sevgilisi - model Tiaqo Ramosdan ayrılıb.**

Xəbəri "The Sun" nəşri yayıb. Məlumata görə, ayrılığın səbəbi T.Ramosun həmcinsləri ilə olan yaxın əlaqələridir. Belə ki, mətbuata sızan informasiyaya əsasən, 23 yaşlı model T.Ramos həm də Neymarın aşpazı ilə görüşür. Bildirildiyinə görə, Neymarın iqamətgahında yaşayan T.Ramos artıq evi tərk edib və Braziliyaya - ailəsinin yanına yollanıb.

## Kim Çenin harada qaldığı bəlli oldu

**Koreya Xalq Demokratik Respublikasının (KXDR) Dövlət Şurasının sədriKim Çen Inhaqqında daha bir xəbər yayılıb. Cənubi Koreyanın dövlət başçısı Mun Cayın Xarici Siyasət üzrə müşaviri Mun Çanq-İn Şimali Koreya liderinin səhhətinə dair CNN-ə açıqlama verib.**

O bildirib ki, hökumətin mövqeyi sabitdir: "Kim Çen In həyatdadır və yaxşıdır. 13 apreldən bəri Vonsan bölgəsində qalır. İndiyə qədər hər hansı şübhəli hərəkət təsbit edilməyib",- o bildirib. Qeyd edək ki, aprelin 11-dən sonra mediada görünməyən Kim Çen Inın xəstə olduğu və vəfat etdiyi barədə şayiələr gəzir./publika.az



## "TIR-la cəsədləri aparırdım..." - Amerikada koronavirus dəhşəti

**Türkiyədə aktyorluğu buraxdıqdan sonra ABŞ-a köçən və TIR sürücüsü işləyən Tolga Karel koronavirusla bağlı yaşadığı çətinliklərdən danışıb.**

Karel koronavirusun mərkəzi olan Nyu-Yorkda həyatın iflic vəziyyətdə olduğunu deyib. Bu günlərdə xəstəxanaya getdiyini və sadəcə rentgen üçün ondan 3500 dollar istənildiyini bildirib.

"Ailəmi qorumaq üçün 1 aydır TIR-da yaşayıram. Çöldə işlədiyim üçün nə qədər diqqət etsəm də, xəstələnə və həmin xəstəliyi ailə üzvlərimə yoluxdura bilərəm. Ona görə evdə yaşamıram. Ümumilikdə vəziyyət çox pisdi. Nyu-Yorka getdiyim zaman "Qısa məsafəyə yük var" dedilər. Yükə baxanda gördüm ki, başqa meyitxanaya aparılacaq 12 cəsəd var. Əvvəl şok oldum, nə edəcəyimi bilmirdim. Yük maşınının soyudulmuş treylerində koronavirus səbəbindən ölən 12 nəfərin cəsədini apardım " - deyə keçmiş aktyor qeyd edib. Bildirək ki, Tolga Karel 2017-ci ildə gözlənilməz bir qərarla aktyorluğu buraxaraq Türkiyədən Amerikaya köçüb.



## "Buradan çıxandan sonra ilk işim anamı qucaqlamaq olacaq"



**"Sənədlərin saxta olduğunu biləndə təəccübləndik. O andan etibarən niyyətimiz məhkəmə və dövləq qurumları ilə birgə məsələni aydınlaşdırmaqdır". Bu sözləri Braziliya millisinin sabiq üzvü Ronaldinyo "ABC TV"yə açıqlamasında deyib.**

Bu ilin mart ayında saxta pasportla tutulduğuna görə Ronaldinyo və qardaşı Paraqvayda həbs edilib. Daha sonra ev dustaqlığına buraxılan keçmiş futbolçu həbsdən sonra ilk dəfə mətbuata danışıb. O, həbs cəzasını öyənəndə buna çox üzüldüyünü bildirib: "Vəziyyətin bu həddə çatacağını heç təsəvvür etməzdim. Bunların sona çatmasına görə hər zaman dua edirəm. Bilirəm ki, Tanrı da bunu istəyir".

40 yaşlı əfsanəvi futbolçu ən çox anasından ötrü darıxdığını bildirib: "Həyatım boyu peşəkarlığın ən üst səviyyəsində olmağa və ətrafımdakı insaları xoşbəxt etməyə çalışmışam. Buradan çıxandan sonra ilk işim anamı qucaqlamaq olacaq. Anam Braziliyada koronavirusa görə çox çətin günlər keçirir".

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600